Bu bir xalq qəzetidi
ƏDALƏT

## Ehtiyatda olan hərbçilərin toplanışı başlayıb



**Azərbaycanda ehtiyatda olan hərbi vəzifəlilərin toplanışı başlayıb. Bu barədə AzVision.az -a Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən məlumat verilib. ""Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun 45-ci maddəsinə uyğun olaraq hərbi vəzifəlilər ehtiyatda olduqları dövrdə hərbi təlim, hərbi yoxlama və xüsusi toplanışlara çağırılırlar.**

Hazırda Dövlət Xidməti tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin müxtəlif ixtisaslar üzrə təlim toplanışlarına çağırılması həyata keçirilir", - Dövlət Xidmətindən bildirilib.

## ABŞ senatoru Azərbaycanla bağlı bəyannamə imzaladı



**ABŞ-ın Florida ştatından olan senator Annet Coan Taddeo-Qoldşteyn Azərbaycanın Müstəqilliyinin Bərpası Günü münasibətilə bəyannamə imzalayıb. Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, senator bəyan edib ki, 18 oktyabr tarixini Florida ştatında "Azərbaycanın Müstəqilliyinin Bərpası Günü" olaraq tanıyır.**

Amerikalı siyasətçi müstəqilliyin bərpasının 30 illiyi ilə əlaqədar Azərbaycan xalqını təbrik edib və Florida ştatında fəaliyyət göstərən Azərbaycan icmasının fəallığından məmnunluğunu ifadə edib. O, 26 oktyabr 2006-cı ildə yaradılan və diaspor fəaliyyəti ilə məşğul olan Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyasının üzvlərinə uğurlar arzulayıb.

Eyni zamanda ABŞ-da yaşayan soydaşlarımızın milli-mənəvi dəyərlərinə layiqincə sahib çıxdıqlarını, Azərbaycanın zəngin mədəniyyətini və incəsənətini yüksək səviyyədə təbliğ etdiklərini nəzərə çatdırıb. Bəyannamə Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyasının sədri Töhfə Eminovaya təqdim edilib.

## Milli Məclisdə yüksək bal toplamış tələbələrlə görüş olub

Bax: səh.2

## Qubadlıda radio və televiziya yayımı təmin olundu




**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi (Teleradio İB) Qubadlıda televiziya yayımını təmin edib.**

Nazirlikdən verilən məlumata görə, rayonun Xanlıq Radio-Televiziya Yayım Stansiyasının mövcud 50 metrlik qülləsindən istifadə olunmaqla 8 TV və 2 radio proqramının Qubadlı şəhəri və Qubadlı rayonunun 12 kəndində (Əlibəyli, Qoturbulaq, Xocahan, Qapanlı, Muğanlı, Hal, Xanlıq, Hənzəli, Əfəndilər, Qəzyan, Saray, Yuxarı Mollu) yayımı təmin olunub.

## Azərbaycan Vatikanda səfirlik açır



**Azərbaycan Vatikanda səfirlik açır. Bununla bağlı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində "Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsi müzakirə edilib.**

Deputatlar səfirliyin açılmasının tərəflər arasında əlaqələrin inkişafına mühüm töhfə verəcəyini diqqətə çatdırıb.Qanun layihəsi müzakirələrdən sonra Milli Məclisin plenar iclasına tövsiyə olunub.

## Prezident İlham Əliyev Türkiyəyə səfər edəcək



**Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda görüşəcək. Bu barədə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı "Twitter" hesabında paylaşım edib.**

"Cənab Prezident Əliyevin "Qardaşım" dediyi zaman kimi nəzərdə tutduğunu hər kəs çox yaxşı bilir. Prezidentlərimiz bir il ərzində 3-cü dəfə - sabah, oktyabrın 26-sı Qarabağda, 4-cü dəfə isə noyabrın 12-də İstanbulda görüşəcəklər. Gözləyirik", - deyə paylaşımda qeyd olunub.

Qeyd edək ki, noyabrın 12-də İstanbulda Türk Şurası Dövlət başçılarının VIII Zirvə görüşü olacaq.

*Nicat NOVRUZOĞLU*

## GÖVDƏSİ OLMAYANLARIN GÖVDƏ GÖSTƏRİSİ

Bax: səh.2

Bu bir xalq qəzetidi
www.adalet.az
# ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 92 (5924) 26 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

## Bakıda yağış, rayonlarda qar yağacaq



**Oktyabrın 26-da Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensivləşəcəyi ehtimalı var. Güclü şimal-qərb küləyi axşam mülayimləşəcək.**

Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Abşeron yarımadasında gecə 7-9° isti, gündüz 10-12° isti, Bakıda gecə 7-9° isti, gündüz 10-12° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütünundan 774 mm civə sutununa yüksələcək.

Nisbi rütubət 80-90 % olacaq.

Oktyabrın 26-da Abşeron yarımadasında rütubətli hava şəraiti və güclü xəzri küləyinin əsəcəyi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.

Azərbaycanın rayonlarında bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 4-9° isti, gündüz 12-16° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti olacaq.

# İlham Əliyev və Mehriban Əliyeva Qubadlı rayonuna səfər etdilər



Bax:səh-2

## Qarabağda yeni iş yerləri: əlavə tədbirlər olacaq



**Maaşlar vətəndaşlarımızı razı salmalı, onların işinin əvəzi olmalıdır. Bu sözləri Axar.az-a açıqlamasında iqtisadçı, millət vəkili Aydın Hüseynov işğaldan azad edilən ərazilərdəki iş yerləri elanında maaşın az olması haqda müzakirələrə münasibət bildirərkən deyib. O bildirib ki, işğalan azad olunmuş ərazilərimizdə hər bir nüans nəzərə alınacaq:**

"Dövlətin dəstəyi ilə oraya köçən soydaşlarımız təsərrüfatla məşğul olacaq və yeni iş yerləri açılacaq. Tam əminliklə deyə bilərəm ki, hər zaman olduğu kimi, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın fəaliyyət göstərməsi üçün dövlət tərəfindən lazımlı şəkildə şərait yaradılacaq və qayğıyla əhatə olunacaq".

**Qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə iş yerləri ilə bağlı elan verilib. Maaş isə 250-1700 manat arasındadır.**

## Taliban maaşları buğda ilə ödəyəcək



**Taliban hakimiyyəti Əfqanıstanda yeni iş yerləri ilə bağlı layihə çərçivəsində işləyəcək şəxslərə maaşı buğda ilə ödəyəcək.**

Buna səbəb kimi ölkədə yaşanan iqtisadi böhran göstərilir.

Bildirilir ki, 40 min insana iş yerləri açılacaq. Fəhlələrə 10, ixtisaslı şəxslərə isə günlük 16,5 kq buğda veriləcək.

Əfqanıstanın İnkişaf Agentliyinin rəhbər köməkçisi Riyazəddin Şərifi bildirib ki, ölkə olduqca ağır dövrdən keçməkdədir. O, layihənin əvvəlcə paytaxt Kabildə, daha sonra ətraf əyalətlərdə tətbiq ediləcəyini deyib.

## 1477 nəfər COVID-19-a yoluxub, 21 nəfər ölüb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 477 yeni yoluxma faktı qeydə alınıb, 628 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 21 nəfər vəfat edib.

## Bakıda prospektdə qumbara tapılıb



**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhəri, Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 56/2 ünvanında qazıntı işləri zamanı partlayış təhlükəli əşyanın aşkar edilməsi barədə məlumat daxil olub.**

Nazirlikdən verilən məlumata görə, hadisə yerinə dərhal FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin pirotexniklər qrupu cəlb edilib. İlk növbədə, hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birgə ərazidəki insanların təhlükəsiz məsafəyə uzaqlaşdırılması təmin edilib və kənar şəxslərin əraziyə girişi müvəqqəti məhdudlaşdırılıb. Sonra pirotexniklər tərəfindən hadisə yerinə baxış zamanı aşkar edilmiş sursatın 1 ədəd F-1 əl qumbarası olduğu müəyyən edilib. Qumbara pirotexniklər tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülərək kənarlaşdırılıb. Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar edilməyib.

## Şəmkirdə avtoxuliqanlar həbs olunub

**Oktyabrın 20-si axşam saatlarında Şəmkir rayon İrmaşlı kənd sakini Vasif Mirzəoğlu dostu və həmkəndlisi Sənan Tağıyevə məxsus "VAZ" markalı avtomobil ilə toy mərasimində spirtli içki qəbul etdikdən sonra rayon ərazsində avtoxuliqanlıq edərək ictimai-asayişi nümayişkəranə şəkildə pozub və bununla da vətəndaşların haqlı narazılığına səbəb olub.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan verilən verilən məlumata görə, sürücülük hüququ olmadan avtomobil idarə edən "sürücü" polis əməkdaşları tərəfindən saxlanılan zaman o, avtomobildə olan digər sərnişinlər Elmar Adıgözəlov, Sənan Tağıyev və Qismət Hüseynov sərxoş halda polisin qanuni tələblərinə tabe olmayaraq, nalayiq ifadələr işlədərək ictimai xuliqanlıq ediblər. Saxlanılaraq Polis Şöbəsinə gətirilən şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokollar tərtib edilərək rayon məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə V.Mirzəoğlu 25, E.Adıgözəlov 3, S.Tağıyev və Q. Hüseynov 15 sutka müddətinə inzibati qaydada həbs edilib.

## Lənkəranda 10-dan çox narkotik alverçisi saxlanılıb

**Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşlarının narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri növbəti əməliyyat-axtarış tədbirləri nəticəsində 11 nəfər rayon sakini saxlanılıb**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə Lənkəran ŞRPŞ-nin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən rayon sakinləri İ.Quliyev, X.Hüseynov, İ.İbrahimov, N.Qasımov, K.Hüseynov, O.Məlikov, O.Məmmədzadə, Z.Quliyev, A.Cəfərov, T.Rəhimov və T.Qurbanov saxlanılıblar. Şəxsi axtarış zamanı onlardan hazır bükümlərdə narkotik vasitə heroin və elektron tərəzilər aşkarlanaraq götürülüb. Saxlanılan şəxslərdən T.Qurbanovun ətrafında aparılan əməliyyat tədbirləri ilə onun rayon ərazisindəki 6 evdən məişət əşyaları və təmir tikinti avadanlıqları oğurladığı müəyyən edilib.

Faktlarla bağlı araşdırma aparılır.

## Nazirlik hamilə qadınları peyvənd vurdurmağa çağırıb

**Səhiyyə Nazirliyinin Elmi- Tibbi Şurası risk qrupuna daxil olan hamilə qadınları (yaşı 35-dən yuxarı olanlar, piylənmə, diabet, hipertenziya, böyrək və qaraciyər xroniki xəstəlikləri, autoimmun sistem xəstəliklərindən əziyyət çəkənlər, çoxdöllük və s.) hamiləliyin 12 həftəsindən sonra mRNT Pfizer ("Comirnaty") vaksini ilə peyvənd olunmağı tövsiyə edir.**



Bu barədə nazirlik məlumat yayıb. Bildirilib ki, son elmi tədqiqatların nəticələrini, bir sıra ölkələrin (ABŞ, İsrail, Belçika, İtaliya, Böyük Britaniya, Sinqapur, Yaponiya və s) vaksinasiya təcrübəsini, ÜST-nin, CDC-nin, FDA-nın tövsiyələrini nəzərə alaraq risk qrupuna daxil olmayan hamilə qadınlar da, hamiləliyin 12 həftəsindən sonra yazılı razılıqları əsasında mRNT Pfizer ("Comirnaty") vaksini ilə peyvənd oluna bilərlər:

"Hamilə qadınlar peyvənd olunduqda, onların əks göstəriş sertifikatı vaksin sertifikatı ilə əvəzlənəcək".

"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir. Koronavirusun daha yoluxucu "Delta" ştammının gündəmdə olması virusla daha ciddi mübarizə aparılmasını zəruri edir. Bundan əlavə mövsümlə əlaqədar havanın dəyişməsi də epidemiyanın daha geniş yayılması riskini artırır" - məlumatda qeyd olunub.

## Oxucuların nəzərinə

**Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

**Mehman CAVADOĞLU**

## Üçtərəfli bəyanatın bir ili



### Zəngəzur yolu açılacaqmı

*Təxminən iki həftədən sonra Atəşkəs haqqında Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatın bir ili tamam olur. Bu bəyanatla ordumuzun 44 gün sərasər davam edən zəfər yürüşü finiş xəttinin az qala bir addımlığında dayandırıldı. Son anda əzəli və əbədi satellitinin dadına yetişən Kreml onu tam məğlubiyyətdən qorumaqla Azərbaycanın 30 ilə yaxın idi ki, işğal altında olan ərazilərinin hamısı üzərində öz suveren hüquqlarını bərpa eləmək haqqına girdi.*

Bax: səh.2

## "Rusiya NATO-ya daxil olmalıdır"

**Yeni dünya şərtləri NATO-nun yenilənməsini tələb edir. Bu iddia ilə türkiyəli jurnalist Məhməd Barlas "Sabah" qəzetində çıxış edib. Onun sözlərinə görə, NATO-ya ilk növbədə Rusiya üzv olmalıdır:**

"Bütün bunlar utopiya görünə bilər, amma bu gün xüsusilə NATO-çu Avropa Rusiya enerjisi hesabına yaşayır. Rusiya terrorizmlə mübarizədə bütün NATO ölkələrindən aktivdir. Ümid edirəm ki, yekunda mənim arzularım yerinə yetəcək və Rusiyanın da daxil olduğu NATO peyda olacaq".

## GÜNÜN LƏTİFƏSİ



Birinci gün birinci sinif şagirdləri dərsə gəliblər.

Müəllimə başa salır:

**- Uşaqlar siz dərsə gəlmisiz. Dərsdə sakit oturmaq lazımdır. Əgər nə isə soruşmaq istəyirsinizsə, əlinizi qaldırın!**

Bir oğlan əlini qaldırır.

**- Nəsə soruşmaq istəyirsən?**

**- Yox, sadəcə yoxlamaq istəyirəm sistem necə işləyir?**

# İlham Əliyev və Mehriban Əliyeva Qubadlı rayonuna səfər etdilər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda səfərdə olublar.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı və birinci vitse-prezident Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "Azərenerji" ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak ediblər.

Sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

### *Xanlıq-Qubadlı yolunun təməli qoyuldu*

**Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməli qoyulub.**

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak ediblər.

### *"Qubadlı" yarımstansiyasının açılışı oldu*

**"Azərenerji" ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının açılışı olub.**

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak ediblər.

### *Şərqi Zəngəzurda yeni hərbi hissə kompleksi açıldı*

**Qubadlıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışı olub.**

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak ediblər.

Qeyd edək ki, Qubadlı rayonu Şərqi Zəngəzur iqtisadi rayonuna daxildir.

### *İlham Əliyev Azərbaycan xalqını təbrik etdi*

**"Bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür. Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etdi və bundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər günü kimi qeyd ediləcək".**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Bu münasibətlə bütün qubadlıları və Azərbaycan xalqını ürəkdən təbrik edən dövlətimizin başçısı Qubadlının azad olunmasının müharibənin gedişindəki önəmindən danışıb.

### *Ali Baş Komandan: "Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı"*

**"Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik və beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz".**

Adalet.az xəbər verir ki, bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə söyləyib.

Dövlətimizin başçısı qeyd edib ki, Qubadlıdan sonra biz öz zəfər yürüşümüzü, zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq.

### *İlham Əliyev Şükür Həmidovun qəhrəmanlığından danışdı*

**"Bu gün bu şanlı Qələbədən danışarkən ilk növbədə əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim şəhidlərimiz bizim Qəlbimizdə əbədi yaşayacaq".**

Adalet.az xəbər verir ki, bu fikirləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə səsləndirib.

Azərbaycan xalqının indiki və gələcək nəsillərinin şəhidlərimizlə həmişə fəxr edəcəyini vurğulayan dövlətimizin başçısı Vətən müharibəsində şəhid olmuş Qubadlı sakini, Milli Qəhrəman Şükür Həmidovu bütün hərbçilərimiz, gənc nəsil üçün nümunə adlandırıb.

### *Qubadlının Baş planı hazırlanacaq*

**Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 500 min manat ayrılıb.

# Milli Məclisdə yüksək bal toplamış tələbələrlə görüş olub

**Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov parlamentdə qəbul imtahanlarında yüksək bal toplamış Beyləqan rayonundan olan bir qrup tələbə ilə görüşüb.**

Gəncləri salamlayan Şahin İsmayılov onlara parlamentin tarixi, fəaliyyəti, parlamentdə işin təşkili və onun strukturları haqqında ümumi məlumat verib.

Sonra tələbələr parlamentin inzibati binasını gəziblər. Müstəqil Azərbaycanın memarı, Ümummilli liderin adını daşıyan Heydər Əliyev xatirə zalı ilə tanışlıq zamanı deputat Şahin İsmayılov Ümummilli liderimizin gələcək nəsillərə örnək olan həyat yolunu, siyasi, dövlətçilik fəaliyyətini əks etdirən eksponatlar haqqında gənclərə məlumat verib. Ziyarətçilər zalda nü-



mayiş olunan və Ulu öndər tərəfindən qəbul edilmiş tarixi qərarların surətləri, ona verilmiş xidməti və deputatlıq vəsiqələri, dahi rəhbərin ömür yolunun ayrı-ayrı dövrlərini əhatə edən materiallara və eksponatlara baxıblar. Plenar iclas zalında isə tələbələrə Milli Məclisin plenar iclaslarının keçirilməsi, deputatların zalda yerləşmə qaydaları, onların fəaliyyəti üçün müasir texnologiyaların nailiyyətlərindən də istifadə edilməklə yaradılmış iş şəraiti, karantin rejimi ilə əlaqədar görülən tədbirlərlə bağlı izahat verilib.

Sonra gənclər "İstiqlal", "Qarabağ", "Xəzər" iclas salonları, "İpək yolu" və "Odlar yurdu" görüş zalları və bu zallarda yaradılmış şəraitlə tanış olublar. Bildirilib ki, Milli Məclisin sədri Sahibə Qafarovanın müvafiq sərəncamına əsasən, xalqımızın və dövlətimizin tarixi-mədəni irsinin yaşadılması, nəsildən-nəslə ötürülməsi işinə töhfə vermək məqsədi ilə parlamentin inzibati binasında olan iclas salonlarına adlar verilib.

**Milli Məclisin kitabxanası ilə tanışlıq zamanı isə tələbələrə kitabxana fondu, burada deputatlar və əməkdaşlar üçün yaradılmış şərait, tətbiq olunan elektron proqram, kitabxananın üzv olduğu beynəlxalq kitab mübadiləsi sistemləri barədə məlumat verilib.**

# *Biz Tehranın gözündə böyümədik, biz də Tehranı gözümüzdə böyütməyək*



*Rza Rzayev,*
*Rejissor, aktyor*

**Son günlər coğrafiyamızda bildiyimiz və bilmədiyimiz proseslər gedir. Görünən və görünməyən qüvvələr iş başındadır. TV-də, yazılı mətbuatda və sosial şəbəkələrdə müzakirələr aparılır. Müxtəlif fikirlər, təhlillər və yozumlar var.**

**Kimisi ortaya ürəyini qoyur, kimisi beynini, kimisi xislətini...**

**Bəzisi dilini çeynəyir, bəzisi ağzına qoyulanı danışır, bəzisi də nə baş verdiyindən xəbərsiz "havlayır".**

**İran Təbrizdən və Tehrandan ibarətdir.**

**Tehran qonşumuzdur , həm də seçmədiyimiz - bəxtimiz belə gətirib. Atalar deyir ki, yaxın qonşu uzaq qohumdan irəlidir. Tehran isə heç vaxt bizi irəli salmaq istəməyib və istəmir də.**

**İllərdi, göz görə-görə Tehran Ermənistanın yanında oldu. Biz də gördüyümüzü dilə gətirə biləcək gücdə deyildik, susurduq, indi gücümüzü göstərmişik, dilimiz açılıb, gerçəkləri açıq söyləyirik.**

**Tehran həmişə Ermənistanın əyilən tərəfində dayanıb, öz əyrisini Ermənistanın əyrisi ilə düz göstərmək istəyib.**

**Ermənistan illərdi bir neçə dövlətin "gəlini" rolunda çıxış edirdi, yengələrinə güvənirdi, son toyda Ermənistana elə toy tutduq ki, yengələrin çoxu aradan çıxdı, ortada qalan Tehran oldu, işin içindən uğurla çıxan Azərbaycan ortalıqda qalan yengə ilə işi olmadığını dəfələrlə bəyan etdi.**

**Dövlət maraqları bəzən (mövcud dövrdə ) ictimai şüur, düşüncə, arzu və istək ilə üst-üstə düşməyə bilər. Dövlət uzunmüddətli strateji maraqları əsas alır. Dövlət üçün çox vaxt bugünün ictimai rəyi əhəmiyyətli olmur.**

**Tehranın siyasəti ilə İranın ictimai rəyi heç vaxt üst-üstə düşməyib. Tehran heç vaxt ictimai rəyi nəzərə almayıb, İranda çoxluğun arzu-istəkləri başqadır, Tehranı da ən çox narahat edən budur.**

**Bizim Tehran ilə dövlət maraqlarımız üst-üstə düşmür, çünki Tehran çəpəri vaxtında yerindən çəkməyib, əyri çəkib, qonşuluq prinsiplərini pozub. Biz də illərdir zamanı gözləmişik çəpəri tarixi yerinə çəkək.**

**Tehran dünyanın bir hissəsi olmaqla razılaşmır, əlavə hissələr istəyir.**

**Son illər Şərqdə, mövcud dövrdə dünya gücləri sayılan və sayılmaq istəyən dövlətlərin gücləri təkrar sınaqdan keçirildi. Tehran sınaqdan çıxa bilmədi.**

**Tehran güzgüdə özünü olduğu kimi görməyən adama bənzəyir, güzgüdə gördüyünü gerçəklik kimi dəyərləndirməyə çalışır və bunda israr edir. Əslində, İran gerçəklikdə tam başqadır, yəni güzgüdə görünən (Tehranın təqdim etdiyi İran) ilə gerçək İran üst-üstə düşmür.**

**Gerçək Tehran gerçəkliyini (əsl üzünü) qəbul etmək istəmir. Uydurulmuş (maskalanmış) üzü ilə oyun çıxarır, bu dəfə əsl gerçəklik ortadadır, Tehran gerçəkliyi (gerçəklik) ilə üz-üzə qalıb.**

**Biz illərdir sübut etmişik ki, Tehrana atılan nə daş olduq, nə də daş atan əl, amma Tehran bizi vuran əllərə həmişə daş qoyub.**

**Tehran harada "A" görür, Azərbaycan oxuyur.**

**İndi Tehranın quyruğu qalıb qapı arasında, günahkar axtarır, günahı bizdə görür, deyirlər - "qapı sizdəndir", qapını istehsal edən ölkənin adı yazılan yerini axıra qədər oxumurlar.**

**İndi görünməyən heç nə yoxdur və Tehran üçün daha heç kim (dövlətlər) görməzdən gəlmək istəmir.**

**Tehran bicliyindən bəzən uşaqlıq edir, düşmənlərini mat qoyur, bu da bir siyasətdir - özünü bəsit göstərib iz azdırmaq, üz-üzə dayandığı düşmənin gözlərinin içinə baxa-baxa başqa ad çəkmək, düşmənini özünə güldürmək, gülən düşməninə qoşulub gülmək - əlavə vaxt qazanmağın və üzrün Tehran (uşaq) forması.**

**Tehran onu vuran idmançıya gücü çatmayacağını öncədən bildiyi üçün idmançını qoyub həmin idmanın yarandığı (və yaxud idmançının keçdiyi) ölkəni günahkar elan edir.**

**Ya Tehran düzələcək, ya da Tehranı düzəldəcəklər.**

**Böyük Ərdoğan: "Mən şəxsən İranla Azərbaycan arasında hərbi qarşıdurmanın olacağına inanmıram. İsrailin Azərbaycanla əlaqələrinə görə İran Azərbaycanı hədəf seçə bilməz. Çünki bu gün İranda yaşayan azərbaycanlıların sayı göz qabağındadır. Bu, təbii ki, İranı düşündürür. O qədər də asan deyil. Görülən işlər səhvdir. Düşünürəm ki, İranın yeni rəhbərliyi bu səhvi davam etdirməyəcək" .**

**Tehran heç vaxt bizi böyük, bütöv görmək istəməyib, bizi bölüb küçükləri böyütmək istəyib, biz Tehranın gözündə heç vaxt böyümədik, gəlin, biz də Tehranı gözümüzdə böyütməyək, çünki İranı tarixən biz qoruduq, biz böyütdük, İran həmişə bizə görə böyük olub, bizim ərazi və əhali sayımıza görə.**

**Dövlət Başçısının tapşırığı ilə işğaldan azad olunan Qarabağda ilk yollar çəkilir, həm də yeniləri, Tehranın son günlər çıxardığı səsdən başa düşülən budur ki, heç demə Tehranı ən çox qorxudan yol da elə Qarabağdan keçirmiş - Təbrizə gedən yol...**

**Dövlət Başçısı tez-tez Qarabağa səfər edir, ən çox da yeni çəkilən yollar ilə maraqlanır, bu Yolda kimsəyə etibar etmir, sükan arxasında da özü əyləşir, kimsə də cürət edib bu Yolda daha onun qarşısına çıxa bilmir, bu Yol Onun Yoludur.**

# Ərdoğanın Azərbaycana səfər proqramı açıqlanıb

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycana birgünlük işgüzar səfər edəcək.**

Bu barədə Türkiyə Prezident Administrasiyasının məlumatında deyilir.

Məlumata əsasən, prezident Vətən müharibəsi nəticəsində azad edilmiş Füzuli rayonunda inşası qısa müddət ərzində başa çatmış beynəlxalq hava limanının açılışını, avtomobil yolunun və Zəngilanda Türkiyənin də töhfəsi ilə tikiləcək "ağıllı aqropark"ın təməlqoyma mərasimində iştirak edəcək.

Səfər çərçivəsində keçirilən görüşlər zamanı Türkiyə-Azərbaycan münasibətlərinin bütün aspektləri nəzərdən keçiriləcək, iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı addımlar müzakirə olunacaq.

Səfər zamanı, həmçinin ikitərəfli münasibətlərlə yanaşı, aktual regional və beynəlxalq məsələlərin müzakirəsi də nəzərdə tutulur.



# "Bakı 4000 raketlə dağıdılacaq" deyənlərin siyasəti niyə dəyişdi?

## İrandan gələn təbrik məktubu

**Yadınızdadırsa, ötən ay İran Silahlı Qüvvələri Baş Qərargah rəisi general Məhəmməd Baqirinin "Azərbaycana 4000 raket atılacaq və Bakı məhv ediləcək" bu sözləri böyük hiddətə səbəb olmuşdu.**

Müharibə həddinə gələn hər iki qonşu ölkədə böyük gərginlik yaşandı. İran rəsmi Bakının daha təmkinli davranışını özünə sərf etdiyi kimi dəyərləndirərək Azərbaycanla sərhədlərdə suda, quruda, hava hərbi təlimlər keçirərək əzələ nümayişinə başladı. Yeni bir müharibənin kandarından dönüldü desək yanılmarıq.

Qafqaz regionunda böyük güc olduğunu anlayan İran fürsətdən istifadə etməyə öz gücünü Azərbaycanla birgə region ölkələrinə göstərməyə imkan tapdı.

Amma hansı təpkilərlə qarşılaşacağını müəyyən edə bilmədi. Gürcüstan, Azərbaycan, Türkiyə, Hindistan eyni vaxtda İranın yük avtomobillərinə, ticarət yüklərinə qoyduğu qadağa İranı tez bir zamanda "havasını aldı".

***Ümumiyyətlə nə region ölkələri, nə də beynəlxalq aləm İranın bu aqressiyasına sakit dayanmadı, hətta İrana qarşı bədbin proqnozlar ard-arda gəldi. İran dünyanın , xüsusən ABŞ-ın məhv etmək istədiyi nöqtə olduğunu , bu hərəkəti ilə ABŞ və digərlərinə onu vurmağa fürsət verdiyinin fərqində olanda siyasətini o cümlədən münasibətini dəyişmək məcburiyyətində qaldı.***



Bir neçə dəfə Azərbaycana qarşı xoş gediş etməsinə baxmayaraq, anladı ki, bağışlanmayıb. Odur ki, yeni bir gedişə meydan açdı.

Bəli, rəsmi Bakının könlünü almaq istəyən İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ölkənin dini liderinin sionizmlə əməkdaşlıqda ittiham etdiyi Azərbaycan Prezidenti İlham Əliyevə Məhəmməd peyğəmbərin mövludu və Vəhdət Həftəsi münasibətilə təbrik məktubu göndərib. Adalet.az xəbər verir ki, məlumatı İran səfirliyi yayıb.

Məlumata görə, məktubda deyilir:

***"Allahın böyük Peyğəmbəri Həzrəti Məhəmməd Mustafanın (s) mövludunun ildönümü, eləcə də bütün müsəlmanların arzusu və Peyğəmbər ümmətinin hədəfi olan Vəhdət Həftəsi münasibətilə Sizi və ölkənizin xalqını ən səmimi şəkildə təbrik edirəm.***

***Bu mübarək və məsud günlərdə Allahın Rəsulundan (s) gözəl nümunə götürərək, İslam dininin müştərək dəyərlərinə söykənərək iman qardaşları kimi iradə nümayiş etdirməklə İslamın yüksəlişi və rəhmət Peyğəmbərinin yolunun təbliği ilə bağlı davamlı və güclü əlaqələrimizin yaradılması istiqamətində ciddi addımlar atacağımıza ümidvar olduğumu bildirirəm.***

***Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan xalqına isə izzət və başucalılığı diləyirəm.***

***Seyid İbrahim Rəisi - İran İslam Respublikasının Prezidenti".***

Belə bir məktubla dost olduğunu göstərmək istəyən İran unudur ki, Bakı bəlkə də bu mənasız "hərbə-zorbanı" unudar, amma 30 il Qarabağa silah, sursat, yanacaq, ərzaq daşıyıb, qudurtduğu ermənilərin gülləsindən qətl edilən Azərbaycanlıları heç vaxt unutmayacaq.

Məzmunca başqa, mənaca "qələt eləmişəm" etiraf- məktubundan sonra Azərbaycanda fars molla rejimi ilə əlaqədar olan saytların da fəaliyyəti həmişəlik dayandırıldı. Bu hərəkət isə Azərbaycan xalqının hirsinin hələ də soyumadığını ortaya qoyur. Həmin saytlar bunlardır: Ahlibeyt.az, Ehlibet.info, Shia.az, İslaminsesi.org, azeri.sahartv.ir

Yuxarıda qeyd olunan saytlarladan əlavə Azərbaycanda "Youtube" kanalında yayımlana bilən fars molla rejiminin idiealogiyasını aşılayan iran dini seriallar da bloklanıb.

**İran Azərbaycana qarşı münasibətini səmimi müstəviyə, mehriban qonşuluq münasibətlərinə çevirərsə, o zaman rəsmi Bakının da münasibəti səmimi olacaq**

**Əntiqə Rəşid**

*Mehman Cavadoğlu*

# *Üçtərəfli bəyanatın bir ili*

## Zəngəzur yolu açılacaqmı

***Təxminən iki həftədən sonra Atəşkəs haqqında Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatın bir ili tamam olur. Bu bəyanatla ordumuzun 44 gün sərasər davam eləyən zəfər yürüşü finiş xəttinin az qala bir addımlığında dayandırıldı. Son anda əzəli və əbədi satellitinin dadına yetişən Kreml onu tam məğlubiyyətdən qorumaqla Azərbaycanın 30 ilə yaxın idi ki, işğal altında olan ərazilərinin hamısı üzərində öz suveren hüquqlarını bərpa eləmək haqqına girdi.***

***Həmin vaxt videoformatda tələm-tələsik imzalanmış doqquz bəndlik Atəşkəs sazişində əksini tapan müddəaların əksəriyyəti ötən dövr ərzində gerçəkləşsə də, bir neçə vacib məsələ, xüsusilə kommunikasiya xətlərinin açılması hələ də öz həllini tapmayıb. Rəsmi Yerevan hər vasitəylə buna əngəl törədir, problemin həllini əsassız bəhanələrlə yubadaraq onu birdəfəlik gündəlikdən çıxarmağa çalışır. Baxmayaraq ki, kommunikasiyaların açılması bölgənin "blokada"dan əziyyət çəkən yeganə ölkəsi kimi ilk növbədə məhz Ermənistanın maraqlarına uyğundu, müharibədən sonra dağılıb pərən-pərən olmuş hazırkı erməni cəmiyyətində həmin məsələ ətrafında qəribə bir həmrəyliyin hökm sürməsi, yumşaq desək, təəccüb doğurur və yüz illərdi ki, beyinlərində qartmaq bağlamış, bütün varlıqlarına hakim kəsilmiş nifrət və kin-küdurət ucbatından ən sadə həqiqətləri belə anlamaqda çətinlik çəkən bir toplumun dəyişməz xislətindən xəbər verir.***

***Rusiya prezidenti V. Putin də "Valday" beynəlxalq diskussiya klubunun bu günlərdə Soçidə keçirilmiş növbəti illik toplantısındakı çıxışında kommunikasiyaların açılmasının vacibliyi üzərində geniş dayandı və bunun bütün region ölkələrinin, ilk növbədəsə Ermənistanın maraqlarına uyğun olduğunu vurğuladı: "...Azərbaycan Naxçıvanla əlarələrin yaranmasında maraqlıdı. Effektli siyasi düzən yaratmaq, region ölkələri, o cümlədən Azərbaycanla sərfəli əlaqələr qurmaq, Türkiyə ilə münasibətlər yaratmaq da Ermənistanın maraqları daxilindədi. Bu bütün hallarda əsas məqsədə - iki dövlətin təhlükəsiz halda dinc yanaşı yaşamasına və iqtisadi inkişafına gətirib çıxardacaq".***

***Bu çıxışdan sonra ekspert cameələrində qəsdən düyünə salınmış "kommunikasiylar problemi"nin çözüləcəyinə dair fikirlər səslənməyə başlandı, Ermənistan, Azərbaycan və rus mətbuatında "fors-major" vəziyyət yaranmasa, Zəngəzur yolunun noyabrın 9-a kimi açılacağı barədə çoxsaylı xəbərlər dərc edildi. Kremlin sözçüsü Peskov isə Rusiyanın "RİA Novosti" agentliyinin sualına cavabında yaxın günlərdə Moskvada Putin-Əliyev-Paşinyan üçtərəfli görüşünün keçiriləcəyini təkzib etmədi, belə bir görüş olarsa jurnalistlərə vaxtında məlumat veriləcəyini bildirdi.***

***Bütün bu gəlişmələri kommunikasiya xətlərinin yaxın günlərdə açılacağının anonsu kimi də qəbul eləmək mümkündü. Hərçənd, Zəngəzur yolunun açılışı heç Rusiyaya da sərf eləmir, daha dəqiqi, onun geopolitik maraqlarına, imperiya ambisiyalarına ağır zərbədi. Çünki bu 41 km-lik yol mahiyyətcə "Böyük Turan yolu"du və istənilən halda aktivlər Ərdoğanın adına yazılacaq. Ancaq buna baxmayaraq Putin bu yolu açmağa məcburdu. Təkcə üçtərəfli bəyanatdakı imzasının nüfuzunu qorumaq naminə yox, həm də Rusiyanın Cənubi Qafqazda getdikcə zəifləyən mövqelərini möhkəmlətmək üçün məcburdu. Artıq Kremldə yaxşı başa düşürlər ki, bu gün öz gücünə və potensialına görə regionun ən aparıcı oyunçusu Azərbaycandı və onun maraqlarınıa etinasızlıq göstərməklə bölgədə nəyəsə nail olmaq mümkün deyil.***

***Putin "Valday" forumundakı çıxışında kommunikasiyaların açılmasıyla yanaşı sərhədlərin delimitasiya və demarkasiyasına da toxunub və birmənalı şəkildə bəyan edib ki, bu məsələ yalnız Rusiyanın iştirakıyla həll oluna bilər. Xatırlayırsınızsa, Azərbaycanla Ermənistan arasındakı sərhəd məsələsi üçtərəfli sazişin predmeti olmadığına görə sərhədlərdə ilk toqquşmalar başladığı günlərdə Paşinyan problemi Fransanın əliylə həll etmək üçün çox vurnuxurdu. Ancaq rəsmi Parisin bölgəyə qoşun göndərmək həvəsində və imkanında olmadığını görəndən sonra bu prosesə Minsk qrupunu qoşmağa çalışır. Odur ki, Putinin aşağıdakı sözlərini təkcə Ermənistana yox, çox güman ki, bütövlükdə Minsk qrupunun digər iki üzvünə ünvanlanmış xəbərdarlıq kimi qəbul eləmək lazımdı: "İndi başlıca məsələ sərhəddəki vəziyyəti tənzimləməkdi. Əlbəttə, burda Rusiyasız bir şey etmək mümkün olmayacaq. Bu məsələdə Rusiya və hər iki münaqişə tərəfindən başqa heç kim lazım deyil(!). Niyə? Çox sadə praqmatik məsələlər var. Ona görə ki, xəritələr rus ordusunun baş qərargahındadı. Sovet dövründə sovet respublikaları arasında sərhədlərin hardan keçdiyini göstərən xəritələr. Orda elə şeylər var ki, qarşılıqlı kompromislər tələb edir. Hardasa nəyisə tənzimləmək, hardasa nəyisə dəyişmək, hər iki tərəfə xeyirli olan variantları tapmaq ehtiyacı hiss olunur ki, qəbul olunsun. Bunu etmək mümkündümü? Mümkündü."***

***Hərçənd, Putinin məntiqilə bu problem Rusiyasız da həll oluna bilər, çünki həmin xəritələr təkcə rus ordusunun qərargahında yox, həm də keçmiş SSRİ Geodoziya və Xəritəşünaslıq idarəsində, surətlərisə müttəfiq respublikaların müvafiq qurumlarında saxlanıldığına görə hər iki münaqişə tərəfində var. İntəhası, həmin tərəflərin hazırkı dövrdə hər hansı bir məsələni sakit məcrada nəinki həll, hətta müzakirə eləmək imkanları olmadığı üçün Putin xeyli haqlı görünür. Yəni, indiki məqamda bu məsələdə Rusiyanın vasitəçiliyi olmadan keçinmək mümkün deyil. Minsk qrupuna gəlincə, onu delimitasiya və demarkasiya kimi məsul bir işdə vasitəçilik eləməyə yaxın buraxmaq olmaz. Ümumiyyətlə, bu qurumu buraxmağın vaxtı çoxdan çatıb. Ən azından, nə qədər ki, Fransa həmsədrlikdən qovulmayıb, Azərbaycan həmin qurumla əməkdaşlığı dayandırmalıdı.***

***Noyabrın 10-da Moskvanın Ermənistanla-Azərbaycan arasındakı təkbaşına vasitəçilik missiyasının bir ili tamam olur. Güman edək ki, Kremlin başçısı həmin vaxta kimi üçtərəfli bəyanatın bütün müddəalarının tam olaraq yerinə yetirilməsinin hər şeydən əvvəl özü üçün bir şərəf və nüfuz məsələsi olduğunun fərqindədi.***

*Nicat NOVRUZOĞLU*

# GÖVDƏSİ OLMAYANLARIN GÖVDƏ GÖSTƏRİSİ

***Saytlarda və sosial şəbəkələrdə bir toy karvanı ilə bağlı video yayılıb. Allah bütün ailə quranları xoşbəxt eləsin.***

***Məsələ nədir?***

***Son zamanlar İran İslam Respublikasının Ermənistana bütün sahələrdə verdiyi dəstək xalq arasında, eləcə də siyasi dairələrdə çox böyük etirazlara səbəb olub. Bu etirazlar da əslində həmişə vardı, sadəcə olaraq indi pik həddə çatıb. Torpaqlarımızı 30 illik işğaldan 44 gün ərzində azad etməyimiz ox olub bir çox dövlətlərin bağrına sancılıb, eləcə də İranın.***

***İranın sərhədlərimizdə gövdə göstərisi yaparaq hərbi təlimlər keçirməsi də elə bir effekt vermədi.***

***Dövlət Təhlükəsizlik Xidmətinin, Daxili İşlər Nazirliyinin və digər hüquq-mühafizə orqanlarının gərgin fəaliyyəti nəticəsində həm İranın narkotrafik yolu bağlandı, həm də casus şəbəkəsi çökdürüldü.***

***Düzdür, hələ İranın ölkəmizdəki trolları və tulaları milçək kimi ürək bulandırırlar.***

***Şüvəlandakı toy karvanı da guya gövdə göstərisidi, amma narahat olmayın, bu gövdəsi olmayan gövdə göstərisidi.***

***Karl Marksın bir sözü özünü çox doğrultmaqdadı: "Din xalq üçün tiryəkdir".***

***Ostap Bender nə deyir: "Poçyom opium dlya naroda?"***

***P.S.** Biz həmin toy karvanının nə videosunu yayırıq, nə də şəklini. Antireklam bəzən reklama çevrilir.*

# Elmira Mirzəyeva - əsl insan ömründən ştrixlər

(əvvəli ötən sayımızda)

**Alim, müəllim, psixoloq, üç qardaş, iki bacının anası, təşəbbüslərdən, cəhdlərdən yorulmayan insan... Bütün bunların fövqündə isə Elmira xanımın Vətən sevgisi, yurda bağlılığı dayanır desəm, ən azı ədalətli olar. O, Azərbaycanı qarış-qarış, el-el, oba-oba tanıyır. Elə bu səbəbdən üz tutduğu ünvanlarda qapıları ərklə döyür, hara olur-olsun orada sevgi və məhəbbətlə qarşılanır. Mən şəxsən ona yol yoldaşlığı elədiyim vaxtlarda dönə-dönə camaatın Elmira xanıma böyük ehtiramının şahidi olmuşam.**

Elmira xanım barəsində təzədən qələmə sarılacağımın qaçılmaz olduğunu anlayınca onu tanıyan bir çox insanlara üz tutdum, bu mərd, dərrakəli qadın barədə rəylər aldım. Əgər həmin fikirləri, hər ürəkdən gələn, sözə çevrilən düşüncələri bir yerə toplasam, ayrıca bir kitab olar. Bu səbəbdən qəhrəmanımız barədə səslənən rəylərdən ən yığcam şəkildə seçmələri portretimizə əlavə eləməyi daha uyğun bildim. Görək kim nə deyir?

"Elmira xanım fədakar, güclü bir ana, örnək, öz dəst-xətti olan istedadlı psixoloq, alimdir. Türkiyədə yaşayır və çalışıram. Uğurlarım az deyil. Özümə inama, lap açığı ayaq üstdə sərbəst durmağıma görə Elmira xanıma borcluyam. O, həyatımın əvəzolunmaz güc mənbəyidir."

*Nəriman Aslanov.Türkiyə*

"Elmira xanım dost-doğma xalamdır. Qohum çox olur, o isə dar günün dayağıdır. Danışıb vaxt aparmaq istəmirəm; qısaca onu deyirəm ki, hətta fiziki sağlamlığıma, övlad anası olmağıma görə xalama borcluyam. O, hamıya nümunədir. Bəlkə elə buna görə qızım xalamın yolunu davam elətdirir - psixoloqdur."

*Günay*

"Müasir həyat olduqca mürəkkəbdir, ondan baş çıxarmaq ağıl istəyir, duyum istəyir. Övladlarımın bir şəxsiyyət kimi yetişib düzgün yol tutmağında Elmira xanımın tövsiyyələrinin əhəmiyyətli rolu olub. Ona hamı inanır, hər bir uşağa, yeniyetməyə öz övladı kimi yanaşdığına görə."

*Səbinə xanım, valideyn*

"Anam məni Elmira xanımın yanına aparanda qorxuluğum var idi, yəni hər şeydən qorxurdum.

Elə bilirəm ki, köksümdəki cəsur ürək, həyata bağlı nikbin düşüncə bu ecazkar qadının mənə hədiyyəsidir."

*Əsmər Ardaşi*

"Əgər Elmira xanım olmasaydı taleyin acı məğlubiyyətinin məni hansı hala salacağını indi də təsəvvür edə bilmirəm. Böyük uşağımın 9, qızımın 4, sonbeşik körpəmin bir yaş yarımı olanda həyat yoldaşımı itirdim. Böyük sarsıntı yaşadığımı deməsəm də anlayarsınız. Əslində həyatım cəhənnəmə döndü. Bax belə bir zamanda ömrümün zümrud quşu - Elmira xanım uça-uça gəldi. Psixoloji yardım prosesində o, məni əri müharibədə itkin düşən, heç



məzarının yeri də bilinməyən bir qadınla tanış elədi. Qadının halına ürəkdən acısam da elə bil gözüm açıldı, düşündüm ki, ona baxanda Allah mənə, balalarıma qarşı mərhəmətlidir."

*Məlahət Zəngiyeva, Zaqatala*

"Elmira xanım mənim mənəvi anamdır, onunla on il öncə tanış olmuşam. Əsir və itkin düşənlərin ailə üzvləri ilə görüş idi. Həyat yoldaşımın itkin düşməyi səbəbi ilə həmin tədbirə məni də çağırmışdılar. O, məni elə bu layihədə birgə çalışmağa dəvət elədi. O, mənimlə bərabər 40-a yaxın belə ağır itki yaşayan, övladından, valideynindən, qardaş-bacısından məhrum olan qadını layihə çərçivəsində işə götürdü. Bu elə-belə işə götürmək deyildi, talesiz insanları yenidən həyata bağlamaq, yaşamağa maddi və mənəvi stimul yaratmaq idi. Bunu isə heç unuda bilmərəm: oğlum musiqiçidi. Dediyim vaxtlarda maddi sıxıntımız həddini aşmışdı. Oğluma qarmon almalıydım ki, el şənliklərinə, toylara gedib bir parça çörəyini qazansın. Qarmon isə nə az, nə çox 1500 manat eləyirdi. İstədik kredit götürək, alınmadı. Elmira xanım məsələdən xəbər tutdu. Bir-iki gün keçmiş zəng çaldı ki, gedin filan banka, o məbləği sizə təmənnasız verəcəklər. Psixoloq çoxdur, Elmira xanım isə insan psixoloqdur!"

*Fəridə Cabbarova, Xocalı*

"Əgər mən qızım Amirənin universitet müəllimi olan bu xanımın portretini çəksəydim onun gözündəki həyatsevərliyi, düzgünlüyü, uşaqlara qarşı sonsuz bir məhəbbətlə döyünən ürəyini təsvir etməyə çalışardım".

*Şöhrət xanım, Tovuz*

"Elmira xanımla atam - şair Nəriman Həsənzadənin "Loqos"-da keçirilən görüşü zamanı tanış olmuşam. Olduqca istiqanlı, səmimi insandır.

O, respublikamızın ən istedadlı, təcrübəli, bilikli, məxsusi aurası, cazibəsi olan psixoloqlardan biridir. Onda ən çox bəyəndiyim keyfiyyət hər zaman öyrənmək və öyrətmək cəhdidir. Onunla Tərtər və Cocuq Mərcanlıda səfərdə də olmuşam. Yolda Elmira xanım dedi ki, şair qızısınız, adıma hansı söz yaraşar sizcə... dedim, Elmira - el anası..."

*Xatirə Həsənzadə, Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent əməkdar müəllim*

O, mənim ikinci oğlumun zavodda qəzaya düşüb həlak olmasını eşidib işçiləri ilə yaşadığım yataqxanaya gəlmişdi. Bilirdim ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin itkin düşmüş şəxslərin ailələrinin müşaiyəti layihəsinə ölkə üzrə rəhbərlik edir.

Elmira xanım bir çox itkin ailələri ilə görüşmüşdü. Bu sadə insanın o gündən indiyə qədər mənə və mənim kimi yüzlərlə gözü yaşlı itkin, şəhid ailələrinə nə qədər mənəvi dəstək olduğunu heç nə ilə ölçə bilmirəm. Kərimova Xoşqədəm - Laçın köçkünü, itkin oğul anası

"O, həyatdan zərbə almış insanların təsəlli, ümid yeridir. Bir çoxları psixoloqu profilaktik məqsədlə axtarır, amma Elmira xanım sarsıntı keçirmiş ailələrin qapısını özü döyür, həmişə də təmənnasız. Çox evə əlidolu, pay-parça ilə gedir..."

*İlhamə İbişova, Biləsuvar*

Əziz anam, sənə arzularımı yazsam gərək bir kitab olsun. Həmişə yanımızda ol, həmişə dostumuz ol.

Hər dəfə səni görəndə bizi bağrına basıb nəfəs alırsan, biz də səninlə nəfəs alırıq. Allah bizə o nəfəsi çox görməsin!

*Alıyev Tural, oğlu*

Elmira xanım bizim ailənin döyünən ürəyi,ailəni birləşdirən bir insandır! Elmira xanım gəhrəman ana və sevimli bir nənədir!

"Elmira xanım - insanları bir-birinə yaxınlaşdıran, onları daxilən sakitləşdirən, zənginləşdirən bir psixoloq ; vətənpərvər; torpağa təbiətə, canlı varlığa aşiq; cavanların, gənclərin ağbircək hamisi; ömrünü Azərbaycan insanına həsr edən xeyirxah ziyalı!.. Elmira xanım - mənim ANAM!

*Alıyev Rəşad, oğlu*

Rəylər çoxdur; BDU-nun dosenti Sevda Quliyeva, Şəmkirdən Rəfiqə həkim, Təranə Əliyeva, psixoloq İlqar Kərimov, müəllimə İradə Nəbiyeva, itkin ailəsinin üzvü Reyhan Canyeva, şəhid bacısı Mayisə Məmmədova, Xocalı sakini Cəmilə Ağayeva, psixoloq Adilə Mustafayeva, həkim Samirə Şirinova, tələbə Arzu Nəbiyeva və digərləri Elmira xanım barədə düşüncələrini bölüşərkən ən dəyərli, səmimi, ən xoş sözləri seçməyə çalışıblar. Məncə, bütün bu gözəl sözlərin ifadə etdiyi mənanı belə ümumiləşdirmək olar - yüksək dərəcəli pedaqoq, psixoloq, dərin mənəviyyatlı insan, əsl vətəndaş, ictimai xadim, etibarlı dost və nəhayət beş ləyaqətli övlad böyüdən cəfakeş ana... və nəhayət sevimli nənə...

Yuxarıda sadaladığım insani cəhətlərin hər birinin ayrıca açması var, həm də dəlilli-sübutlu...

İki daş arasında ümid

Hərdən mənə elə gəlir ki, Elmira xanımı irsi bir humanizm idarə edir; Bir para meşşanların kənar qaçdığı reallıqlar var, onlar bizim sosial, ictimai həyatımızın bir hissəsidir, ona göz yummaq günahdır. Elə bu səbəbə görə Elmira xanım az qala otuz il ərzində fasiləsiz olaraq Qızıl aypara marafonlarına qoşulur, kimsəsiz uşaqların saçına, ailə üzvü itkin düşən insanların ürəyinə sığal çəkir. Bir gün kimsəsiz uşaq evindədir, bir gün tənha qadınların həniri azalmış ocağında, bir gün Axısxa türklərinin qəsəbəsində... O dərdin üstünə getməkdən qorxub çəkinmir, o iki daş arasında olsa belə ümid göyərtməyi bacarır.

## *Epiloq*

Hə, bax bu, Elmira xanımın portretidir. Təsvir alındımı? Nigaranam, əminliyim elə də güclü deyil. Fikir eləyirəm: görəsən sözlər, misallar, faktlarla süslənən bu portretdə onun qəlbini bürüyən yaz yaşılını, mavi gözlərindəki mərhəmət, qətiyyət məhəbbət işığını, geniş alnındakı inadkarlığı, övladlarına, dost doğmalarına, bunlardan daha irəli Azərbaycana sevgisini əks etdirə bildimmi?

**Dərhal deyirəm, bu mümkünsüz bir cəhddir. Mənim isə sözlə portret çəkçək bacarığım nə az, nə çox, elə bu qədərdi. Bu səbəbdən də yorğun bir rəssam təbəssümüylə gülümsəyib ürəyimin dərinliyində tərpənən bir cümləyə boylanıram: Əziz Elmira xanım, buyurun qəbul edin, bu, sizin portretinizdir. Bu portreti həyatın heç də asan olmayan sınaqlarından bir qadın, bir ana mərdanəliyi ilə adlayaraq siz özünüz yaratmısınız, mən yox! Mən isə, sadəcə olaraq bu heyrətamiz avtoportreti çərçivəyə saldım, haşiyələyib naxışla süslədim...**

**Rəhilə Gülgün**

# 44 günün möhtəşəm qələbəsi

**Bizim xalq çox səbirli və mübariz xalqdır. Bu xalq hər bir əziyyətə, hər bir çətinliyə və hər bir sıxıntıya dözməyi bacarır. Ona görə ki, bizim xalqın səbri çox böyükdür. Amma bu o demək deyil ki, kimsə bizim 30 il işğal altında olan torpağımızı saxlamalı və bizə göz dağı verməli idi. Tarix göstərdi ki, bu xalqın böyük səbri olduğu kimi, böyük də gücü var.**

Əlbəttə, o xalq güclü və qüdrətlidir ki, onun siyasi lideri həmişə o milləti irəli, yüksəlişə aparır. Bizim də Azərbaycan tarixində çox qüdrətli və güclü dövlət başçılarımız olub. Onlardan biri Ulu Öndər Heydər Əliyev, digəri isə Prezident İlham Əliyevdir. Ümummilli lider Azərbaycan dövlətinin müstəqilliyini qoruyub saxladı, onu parçalanmaqdan və dağılmaqdan xilas etdi. Çox qısa müddətdə Ulu Öndərin rəhbərliyi ilə məmləkətimiz iqtisadi, hərbi və sosial baxımdan daha da inkişaf etdi. Başqa sözlə demiş olsaq, neft kontraktlarının bağlanması və digər iqtisadi layihələrin həyata keçirilməsi Azərbaycanın sürətlə inkişafına təkan verdi. Əlbəttə, ilkin mərhələdə bizi istəməyən xarici və daxili qüvvələr nəyisə ləngitməyə çalışdılar. Amma həyata keçirilmiş çox böyük siyasi və iqtisadi tədbirlər nəticəsində düşmənlərin arzuları gözlərində qaldı. Azərbaycan öz siyasi və iqtisadi qüdrətinə görə Cənubi Qafqazın ən güclü dövlətinə çevrildi.



İftixar hissi ilə deyə bilərəm ki, Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirdi, ölkəmizin iqtisadi və hərbi cəhətdən daha da yüksəlməsinə böyük təkan verdi. Məhz bu surətli inkişaf ölkəmizi beynəlxalq aləmdə bir daha qüdrətini və möhkəmliyini artırdı. Onu deməyə əsas verdi ki, artıq bizimlə dünyanın ən güclü dövlətləri hesablaşmağa başladı və Azərbaycanla əlaqələri möhkəmlətməyə can atdılar.

Prezidenti İlham Əliyev dəfələrlə beynəlxalq kürsülərdə çıxış edərək bəyan etdi ki, Azərbaycanın bir qarış torpağı da işğal altında qalmayacaq. Nə ATƏT, nə də digər qurumlar işğalçını məcbur etmədi ki, BMT-nin dörd qətnaməsini icra etsin. Çox təəssüf ki, beynəlxalq təşkilatlar işğalçı Ermənistana havadarlıq edirdilər. Bir daha Azərbaycan prezidenti çıxışlarında bəyan etdi ki, biz bu məsələləri heç də sükutla qarşılaya bilmərik.

Bəli, artıq 2020-ci il sentyabrın 27-də erməni təxribatları və hücumları bu xalqın səbir kasasını doldurdu. Və Azərbaycan ordusu əks-hücum əməliyyatı keçirməyə başladı. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuz elə sentyabrın 27-də Füzulinin Horadiz, Aşağı və Yuxarı Əbdürəhmanlı və Cəbrayılın Böyük Mərcanlı kəndlərini azad etdi. Cənab Prezident xalqa müraciət edərkən elə bu xəbəri özü birinci millətimizə çatdırdı və xalqımız da müharibənin ilk günündən son gününə qədər televizor qarşısında əyləşib cənab Prezidentin xalqa müraciəti zamanı bu müjdəni gözləyirdi.

Rəşadətli və Müzəffər Azərbaycan ordusu hər gün böyük qələbələrə imza atırdı. Ermənilərin fantastik adlandırdığı ordusu Azərbaycan əsgərinin qabağında darmadağın dağılırdı və diz çökürdü. Hətta onlar qorxularından ağır texnikalarını və silahlarını atıb qaçırdılar. Bu o demək idi ki, Müzəffər Azərbaycan ordusu qarşısında heç bir qüvvə dayana bilməzdi. Hətta ermənilərin havadarları belə cəsarət edib böyük Qarabağ savaşına burun soxa bilmədilər. Bir neçə dəfə cəhd etsələr də, yerlərində oturduzdular.

Sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ savaşı bir daha göstərdi ki, Azərbaycan xalqı çox güclü və qüvvətlidir. Çünki bu savaşın başında Ali Baş Komandan İlham Əliyev dayanmışdı. O, 44 gündə bir Ali Baş Komandan kimi Azərbaycan ordusuna çox şərəf və ləyaqətlə rəhbərlik etdi və tarixdə analoqu, oxşarı olmayan böyük bir qələbəyə imza atdı. İkinci Qarabağ savaşı göstərdi ki, Azərbaycan xalqı öz Prezidenti İlham Əliyevin ətrafında bir yumruq kimi birləşib. Bu dəmir yumruq 44 gündə ermənilərin başına elə dəydi ki, onlar işğal altında olan bütün torpaqlarımızı qoyub qaçdılar.

Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa aslan kimi döyüşən oğlanlarımızın hesabına işğaldan azad edildi. 10 noyabr Bəyannaməsi 3 ölkənin Prezidentinin iştirakı ilə qəbul edildi. Rusiyanın, Azərbaycanın və Ermənistanın Prezidentləri bu bəyannaməyə imza atdılar. Həmin bəyannamədə qeyd olunurdu ki, ermənilər qısa zaman ərzində Ağdamdan, Laçından və Kəlbəcərdən də çıxacaqlar. Bəli, belə də oldu. Onlar Ağdamı da, Laçını da, Kəlbəcəri də tərk etdilər. Amma həmin yerləri tərk edərkən bir daha erməni faşizmi öz sifətini açdı. Yaşadıqları binaları və meşələri yandırdılar, ağacları qırıb apardılar. Bu, onu göstərirdi ki, bizimlə müharibə edən dünyanın ən vəhşi və qəddar millətidir. Onlar tək bizim əsgərlərimizlə döyüşmürdülər, həm də qəbiristanlıqlarımızdakı ölülərimizlə də döyüşürdülər. Qəbirləri dağıdıb onların sümüklərini aparmaq dünyada heç bir müharibədə analoqu olmayan bir hadisədir. Ermənilərin bu cür vəhşiliyi göstərirdi ki, biz hansı bir murdar xalqla qonşu olmuşuq.

Azərbaycan xalqı çox böyük, mərhəmətli, bəşəri bir xalqdır. Və bu xalq ölkəmizdə yaşayan dinindən və millətindən asılı olmayaraq bütün xalqlara hörmətlə yanaşır. Bunu dünya da bilir, həmin xalqlar da.

Biz 30 il dözdük və axırda da haqq, ədalət uğrunda mübarizə apararaq işğal altında olan bütün torpaqlarımızı azad etdik. Bu o deməkdir ki, Azərbaycan öz gücü, öz ordusu, öz xalqı hesabına torpaqlarını erməni işğalçılardan xilas etdi.

**Bu, həm də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu xalq və millət tərəfindən necə böyük sevgi ilə qarşılandığını göstərdi. 44 günlük Qarabağ savaşı bir daha göstərdi ki, Azərbaycan xalqı və Azərbaycan vətəndaşları bir yumruq kimi Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək möhtəşəm bir qələbə qazandı.**

**Afiq MƏMMƏDOV,**
**Bakı şəhər 15 saylı Notariat Ofisinin xüsusi notariusu**

## *Deyirlər suyun keyfiyyəti yüksələcək*



**Ölkəmizdə suyun qiyməti 100 faiz bahalaşanda deyirdilər ki, onun keyfiyyəti yüksələcək, bütün yaşayış sahələrinə fasiləsiz olaraq su veriləcək. Təbii ki, camaat da bunu çox böyük sevinclə gözləyirdi. Suyun bahalaşmasından bir ilə yaxın vaxt gedir, nə mənzillərə verilən suyun keyfiyyəti yüksəlib, nə də hər yaşayış sahəsinə fasiləsiz su verilir.**

Bizim yaşadığımız Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki 13 nömrəli binaya hələ də su fasilələrlə verilir. Yəni camaat suyu səhər və axşam saatlarında ala bilir. Keyfiyyətinə gəldikdə isə burda elə də bir dəyişiklik baş verməyib. Yəni, əvvəllər su necə idisə, elə indi də o cürdür. Qiymətlər bahalaşanda qurumlar bəhanə gətirirlər ki, keyfiyyəti yüksəltmək və dayanıqlı su vermək üçün bu addım atılır. Amma zaman ötür, camaat görür ki, heç nə dəyişməyib. Yəni, köhnə hamam, köhnə tasdır.

**Emil FAİQOĞLU**

# Rusiya SM-ın tibbi yardım və aksiyaları boşa getdi

## *124 erməni koronavirusa yoluxub, 66 nəfər isə...*

**10 noyabr razılaşmasından sonra Rusiya sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərimizdə məs kunlaşan ermənilərə hər çeşid yardım paylamaqda israrlı olduqlarını göstərdilər. Ermənilərə mətbəx və qida dəstləri, ərzaq, yanacaq, su, tibbi ləvazimatlar paylanıb, Tiibbi yardımlar, tibbi aksiyalar hələ də davam etməkdədir.**

Hətta Rusiya SM humanitar-tibbi aksiya çərçivəsində adını unutmaq istəmədikləri "Artsax respublikası"nın ucqar yaşayış məntəqələri"nin sakinlərinə də yardım göstəriblər.

Buna baxmayaraq humanitar-tibbi aksiya çərçivəsində edilən bütün yardımlar Qarabağda yaşayan ermənilərə yaxşı təsir göstərməyib.



Çünki ermənilər arasında koronavirusa yoluxmada artım müşahidə edilir. Adalet.az xəbər verir ki, son sutkada cəmi 140 test aparılıb, 46 testin nəticəsi pozitiv olub. Cəmi 19 min civarında olan əhali üçün bir gündə 46 yeni yoluxma yüksək nəticə sayılır. Hazırda 124 nəfər xəstəxanada müalicə olunur, onlardan 14-nün vəziyyəti çox ağır, 52-nin vəziyyəti isə ağır qiymətləndirilir. Ümumilikdə indiyə qədər Qarabağda məskunlaşan ermənilər arasında 1594 yoluxma qeydə alınıb.

**Rusiyanın göndərdiyi, sülhməramlıların canfəşanlıqla payladığı bütün yardımların "xeyrin"ni ermənilər hər zaman belə "həzm etsinlər" diləyi ilə**

**Əntiqə Rəşid**

# MKİ: Dünya savaşı bu tarixdə, bu səbəbdən başlayacaq

**Önümüzdəki onilliklərdə dünya planetdəki iqlim dəyişikliyinə görə qlobal hərbi münaqişə ilə üzləşə bilər.**

Bu barədə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) hesabatında bildirilib.

Müəlliflərin fikrincə, 2040-cı ildən gec olmayaraq dünyada "iqlim toqquşmaları" başlayacaq ki, bu zaman tərəflər quraqlıq və daşqın kimi təbii fəlakətləri gücləndirən texnologiyalardan bir-birinə qarşı istifadə edəcəklər.

Mütəxəssislər, qlobal istiləşmənin qarşısını almaq üçün istixana qazı emissiyalarının azaldılmasını ehtiva edən Paris İqlim Sazişinin icrası ilə bağlı mübahisələr səbəbindən ölkələr arasında gərginliyin artması barədə də xəbərdarlıq ediblər.

Hesabat müəllifləri inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişikliyinin təsirləri ilə əlaqədar daxili münaqişələrin riskini bəyan ediblər,



çünki bu dövlətlər yeni şəraitə daha az uyğunlaşa bilir.

İqlim müharibəsində gələcək potensial qaynar nöqtələrə Konqo, Hind, Mekonq və Nil çayı hövzələri kimi bölgələr daxildir. Orada münaqişələr çay kanallarının dəyişməsi və su axınının istiqamətinin dəyişdirilməsi səbəbindən yarana bilər.

**Hesabatda qlobal iqlim dəyişikliyinin mənfi təsirlərindən ən çox təsirlənən 11 ölkənin siyahısı verilib. Analitiklərin fikrincə, bu dövlətlər sağ qalmaq naminə ifrat tədbirlərə gedə bilər. Söhbət xüsusən də nüvə silahına malik olan Çin, Hindistan və Pakistandan, eləcə də Əfqanıstan, Şimali Koreya, Myanma və Mərkəzi və Cənubi Amerikanın bir sıra ölkələrindən gedir.**

**MEHRİBAN**

# Qrant Melik-Şahnazaryan "müharibənin nəticələri ilə barışmırıq" - deyirsə, Azərbaycan Ordusu növbəti dəfə "barışdırar"

**Qafan meri Gevork Parsyanın Ağdağ dağının Azərbaycanın nəzarətinə keçməsiylə bağlı "" vay- şivən"I Ermənistanda böyük ajiotaja səbəb olmuşdu. "Bu ərazi vacib yüksəklikdir, bizim üçün strateji əhəmiyyətli məntəqədir. İndi rusların olmaması sayəsində bu məntəqə azərbaycanlıların tam nəzarətinə keçib." söyləməsi digər erməni siyasətçilərini də hərəkətə keçirmişdi.**



"Hayastan" blokundan olan deputat Vaqe Akopyan dərdli-kədərli açıqlaması erməni ictimaiyyətinin içərisinə "od salıb". Onun :" Güman ki, Şikaox dövlət qoruğunun qarşısında yerləşən müdafiə mövqeyimizi itirəcəyik" deməsi öz xalqına Ağdağ (Pela) şokundan sonra ikinci şok oldu.

Bu gün isə erməni politoloq Qrant Melik-Şahnazaryan haray çəkərək öz xalqına "dəhşətli açıqlamalar edib.

Adalet.az xəbər verir ki, politoloq iddia edib ki, ekspert və mütəxəssislər Azərbaycanın daha geniş hədəfləri var bütün bu hədəflər çəkinmədən xalqa çatdırmalıdır.

Erməni ekspertin sözlərinə görə, Azərbaycan uzunvədəli layihələr icra etdiyi üçün Zəngəzur (Sünik) məsələsinə ayrı problem kimi yanaşmaq doğru olmazdı:"Azərbaycan hərbi qüvvələri Göyçə mahalında (Geqarqunik) elə mövqelərə nəzarət edirlər ki, oradan bir və ya bir neçə saat ərzində Səlim aşırımına keçib Zəngəzurla (Sünik) Ermənistanın əlaqəsini kəsə bilərlər. Bu, həqiqətən də böyük problemdir".

O, erməni xalqının müharibənin nəticələri ilə "barışmadığını" da hər yerdə dilə gətirmək lazım olduğunu da ifadə edib.

***P.S.** Ay separatçı, ay o uzun burnundan uzağı görməyən millət! Müharibənin nəticələri ilə "barışmayıb nə edəcəksiniz? 30 il at oynadıb, sərvətlərini çapıb- taladığınız Qarabağın 75 faizi Azərbaycan dövlətinin nəzarətindədir, Ordunuzun texnika, silah-sursat, canlı qüvvə sarıdan beli qırılıb.*

*Bir ildir, özünüzü toparlaya bilmirsiniz, "revanş"deyib özünüzü parçalasanızda, çaqqal tələsi qurub, qəflətən hücum etməklə heç nə qazana bilmədiyinizin fərqindəsiniz!*

*Özünüzə bənzər murdar niyyətli himayəçilərinizin dilənçi payı- yardımları ilə ayaqda qalırsınız, Ermənilərin böyük hissəsi, nəinki Qarabağda qalmaq, hətta Ermənistanda qalmaqdan imtina edib xaricə üz tuturlar.*

*İqtisadiyyatınız, maddi təminatınız, inkişaf kodeksiniz sıfırın yanında ləngər vurur. Müharibənin nəticələri ilə barışmayıb, nə qələt edəcəksiniz? Bəlkə, Azərbaycanı bu xam xəyallarla qızışdırıb Zəngəzuru, Göyçəni də əlinizdən çıxarasınız?*

*Di haydı, barışmayın görək, nə olur?*

**Əntiqə Rəşid**

# Türkiyə Zəngilana aqropark üçün avadanlıq göndərir

**İşğaldan azad edilmiş Zəngilan rayonunda kənd təsərrüfatının inkişaf etdirilməsində Azərbaycanla Türkiyənin birgə işləri davam edir.**

Rayonun Ağalı kəndində yaradılan ”ağıllı kənd” layihəsi çərçivəsində Türkiyə şirkətlərinin də iştirak etdiyi aqroparkın yaradılması da nəzərdə tutulur. Aqropark ərazisində əkin sahələri, istixanalar, meyvə bağları, iribuynuzlu malqara ferması yer alacaq.

Aydın vilayətində fəaliyyət göstərən ”Efe Ziraat Aletleri” şirkəti aqropark üçün iş texnikası və avadanlıqlar göndərməyə başlayıb.

Şirkətin sahibi Mehmet Akkın öz açıqlamasında builki ixracatda Azərbaycanın geniş paya malik olduğunu bildirib:

”Şirkət beş il əvvəl Türkiyə hüdudlarından kənara ixracata başlayıb. Hazırda aralarında Almaniya, Fransa və İtaliyanın da olduğu 40 ölkəyə ixrac həyata keçirilir.

Azərbaycanın azad etdiyi ərazilər isə bizim şirkətin işini daha da sürətləndirdi. Biz Azərbaycana ixrac həcmini 10 dəfə artırdıq. Bu il 800 min dollarlıq məhsulu Azərbaycana göndəririk”.

**MEHRİBAN**

# Tatarıstan Kremlə qarşı: Prezident statusu ləğv edilmədi



**Tatarıstan Dövlət Şurası "Rusiya subyektlərində ictimai hakimiyyətlərin ümumi prinsiplər əsasında təşkili haqqında" federal qanun layihəsini dəstəkləməyib.**

Bu məlumatı TASS agentliyi yayıb. Dövlət Şurası qanun layihəsinin Rusiyanın konstitusiya quruluşunun əsaslarına zidd olduğunu bildirib.

Qeyd edək ki, qanun layihəsi Rusiya subyektlərinin rəhbərlərinin prezident olaraq adlandırılmasını qadağan edir. Tatarıstan indiyə qədər bu qanuna əməl etməyən yeganə regiondur. Belə ki, respublikanın rəhbəri hələ də prezident adlandırılır.

**MEHRİBAN**



*Eminquey*

# İçinizdəki ayının adı nədir, bəylər?

*Oyuncaq ayı…*

*İndiki dövrün "sevgi" simvolu sayılır.*

*Kişilər içlərindəki ayını çıxarıb sevdikləri qadınlara hədiyyə edirlər. Qadınlar da o ayıların boğazına kəndir keçirib bir ömür hansı havaya istəsələr oynadırlar.*

*Oynadıb qurtarandan sonra da bir ağaca bağlayıb zərərsizləşdirirlər.*

*Yadıma gəlir, əlifba bayramımda bütün valideynlər uşaqlarına oyuncaq ayı almışdılar. Amma xatırlamıram ki, o zamanlar ayı "sevgi" simvolu idi, yoxsa yox.*

*Oxuduğum qədər oyuncaq ayılar 1980-ci illərin ortalarında dəbə minibmiş. Elə məhz uşaqlara alınırmış.*

*Və həm də Ancelina Colidən Kevin Speysiyə qədər, ABŞ prezidentləri Klinton, Buş, Obama, Tramp - hamısının oyuncaq ayı ilə xüsusi fotoları var.*

*Oyuncaq ayının əsl hekayəsinə gəlincə isə…*

*Türk yazıçısı Alev Alatlının "Suç ortağı Hollywood" kitabında bu barədə qeyd olunur.*

*Alev Alatlı kimdir?*

*O, bir dövr ABŞ-ın Kaliforniya Universitetində araşdırmalar aparıb, universitetin 1972-74-cü illərdə müxtəlif ölkələrdə apardığı psixo-dil elm layihəsinin İstanbul şöbəsinə nəzarət edib, 1981-84-ci illərdə "Cumhuriyet" qəzeti ilə birlikdə "Bizim English" adlı ingiliscə təhsil jurnalı yayımlayıb, 1984-cü ildən etibarən yazıçılıqla məşğul olmağa başlayıb, Fələstin problemi ilə bağlı apardığı araşdırmalara görə 1986-cı ildə Yasir Ərəfat tərəfindən "Azadlıq medalı"na layiq görülüb, 1987-ci ildə yazdığı "İşgəncəçi" romanına görə Türkiyə Yazıçılar Birliyinin mükafatını qazanıb, "Qoqolun izində" seriyasının ilk iki romanı rus dilinə tərcümə olunub, sözügedən iki romana görə 2006-cı ildə Mixail Şoloxov 100-cü il Ədəbiyyat Mükafatını qazanıb.*

*Gələk mövzumuza.*

*Bütün dünyada bu oyuncaq ayılar "Teddy Bear" kimi tanınır.*

*"Teddy" - bu adla tanınan Teodor Ruzvelt səkkiz il ABŞ-ın prezidenti oldu.*

*Ruzvelt Dakotadakı fermasında mal-qara yetişdirən kovboy idi.*

*Xeyli vaxt Amerika mədəniyyətində kovboylar "intiqamçı, zalım, söyüşçül" olaraq tanındılar.*

*İyirminci yüz ilə gəlib çatdıq, kovboylar Hollivud filmlərilə məşhurluğa qovuşdu. Vəşhi Qərbin qəhrəmanları oldular!*

*Kovboy geyimləri dəb oldu.*

*1909-cu ildə "Böyük əxlaqçı" kimi tanınan kovboy Ruzvelt Keniya, Konqo və Sudanı əhatə edən bir səfərə çıxır.*

*11 min 397 heyvan öldürür.*

*Ağ kərgədan, fil, begemot və s.*

*Afrikadan qayıdanda Norveçə baş çəkir.*

*1906-cı ildə ona verilən Nobel Sülh Mükafatının pulunu götürmək üçün.*

*Ona bu mükafatı Rusiya-Yaponiya müharibəsini dayandırdığı üçün vermişdilər.*

*Ruzvelt Missisipi ilə Luizana əyalətləri arasında sərhəd məsələsini həll etmək üçün bölgəyə ova çıxır. O, yaxşı ov tapmamasından şikayətlənərkən yoldaşları bir ayı balası tapıb onu ağaca bağlayırlar, "Qoy prezident gəlib vursun!"- deyirlər.*

*Yaxşı kovboy olduğunu göstərməliydi axı.*

*Yaxşı kovboy heç bir heyvanı arxadan vurmazdı.*

*Bu hadisə "Vaşinqton Post" qəzetində bir karikatur mövzusuna çevrilir və bundan təsirlənən Morris Miçtom arvadı Rozdan oyuncaq ayı düzəltməsini xahiş edir. Və bu oyuncaq ayını Brooklindəki dükkanının vitrininə qoyur.*

*Daha sonra bu ayını Ağ Evə yollayır, Ruzveltdən ona ad qoymasını istəyir. Ruzvelt bu ayıya "Teddy Bear" (Ayı Teddi) adını qoyur.*

*O qədər pul verirsiniz, sevgilinizə hədiyyə edirsiniz, amma heç birinizin ağlına gəlməzdi ki, bu oyuncaq ayı nə vaxtsa öldürülmək üçün ağaca bağlanan ayı balasını simvolizə edir.*

*Bəs içinizdəki ayının adı nədir, bəylər?*

## Məktəbli məktubları tarixə çevrilməlidir




**Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsinin qaliblərdinən biri olan Vətən Müharibəsi iştirakçısı, şair Emin Piri "Zəfər klubu" layihəsi haqqında İctimai Tv-nin MAG verlişində danışıb.**

O, bu layihənin önəmindən, məktəbli məktublarının əhəmiyyətindən bəhs edib. Qeyd edib ki, məktəbli məktəbli məktubları arxivə qovuşmamalı bir kitab halında tarixə çevrilməlidir.

**Cavid Piri**

# "Yada düşdü"




**Hər sayını səbirsizliklə gözlədiyim "Yada düşdü" jurnalını mənə təqdim edəndə bir anlıq bu jurnalın yarandığı zamanını, onun ilk redaktorunu və bütövlükdə bu jurnalla bağlı həyatımda, yaddaşımda olanları bir anlıq gözümün önünə gətirdim və baxıb gördüm ki, ötüb-keçən illər izsiz, səssiz, səmirsiz olmayıb. Bu jurnal aybaay, ilbəil püxtələşib öz sambalını da artırıb, çevrəsini də genişləndiribdi.**

Artıq sayca 43-cü "Yada düşdü" oxucu ilə üzbəüzdü. Elə ötən xatirələrin fonunda 43-cü sayı gözdən keçirə-keçirə, bir məqamı özüm üçün xüsusi qeyd edirəm. Bu məqam da jurnal yarandığı gündən onun təsisçisi, şairə Nəzakət Məmmədlinin jurnalın açılan iç üz qabığında, necə deyərlər, öz yerində oxuduğum şeir oldu. Bu dəfə də Nəzakət xanım özünün kövrək duyğularını şeirə çevirərək oxuculara bir xanım yazar olaraq üz tutur və bildirir ki, ""Yada düşdü"nün səhifələrində paylaşdığım bu şeirlər ifadə olunan dualar hər bir ailə quran və qurmağa hazırlaşanlar üçündür".

Şeirdən aldığım xoş ovqatın təsiri altında bu misraları mən də bilgisayağı diktə edirəm:

*Eşq iki ürəyin bir ilməsidir,*
*Kövrək duyğuların həzin səsidir.*
*Bu gün məhəbbətin təntənəsidir,*
*Ayna sular kimi ömrün durulsun,*
*Orxanım, toy günün mübarək olsun!*

Jurnalın bütün yazıları öz rəngarəngliyi ilə, əhatə dairəsi ilə oxucunu özündən uzağa buraxmır. Elə unudulmaz xalq şairimiz Musa Yaqubun "Yalvarış" şeirindən başlayaraq "Gözlədiyimiz kitablar" ölümünə qədər bütün yazıların hər biri şəxsən mənim üçün həm bilgi mənbəyi, həm də xoş ovqatlı anlar deməkdir. Millət vəkili, akademik Rəfael Hüseynovun xalq şairi Musa Yaqubla bağlı yazdığı "Qaranquş yuvaları hörən adam" məqaləsi təkcə şairə yox, həm də onun böyük poeziyasına səmimi bir etiramın, minnətdarlığın ifadəsi idi. Bu məqamda xalq yazıçımız Elçinin dövlət xadimi Musa Məmmədovla bağlı "Mənəviyyatın təmizliyi" yazısı da məni bir zamanlar işlədiyim Xankəndinə apardı. Şəxsən tanıdığım Musa Məmmədovla bağlı anlar gözümün önünə gəldi. Mən "Yada düşdü"nün bu sayındakı yazılar arasında həmişə "bacı" deyərək müraciət etdiyim əməkdar jurnalist Flora Xəlilzadənin "Durna qatarının Sonası", həmçinin xalq yazıçısı Kamal Abdullanın "Hacı Mir Həsən ağa Səyyah" yazılarını böyük maraqla oxuyub bir anlıq bu yazıların ovqatına kökləndim və mənə bir daha bəlli oldu ki, dəyərli söz həmişə onu yazanı da, onun həsr olunduğu ünvanı da ucalda bilir. Bu jurnalın bu sayındakı yazıçı-publisist Bəxtiyar Qaracanın "...Qızılgülləri yadından çıxarma..." məqaləsindəki nostalji ovqat kimi.

**Ümumiyyətlə, jurnalın bu sayı həm tərtibat baxımından, həm də materialların zənginliyi baxımından bir daha vurğulayıram ki, çox "Varlı"dı, zəngindi. Ona görə də hər bir yazı barəsində ayrı fikir söyləmək, bu nömrədə təqdim edilən şeirlərə münasibət bildirmək heç də asan deyil. Zənnimcə, Rəşad Məcidin, Şöhlət Əfşarın, Əsəd Cahangirin bir-birindən maraqlı şeirləri, professor Vaqif Yusiflinin, Rüstəm Kamalın, yorulmaz tədqiqatçı Şəmistan Nəzirlinin jurnalda yer alan məqalələrinin hər biri, eləcə də Fərid Hüseynin "Həqiqətlə həmfikir şeirlər" və digər materiallar oxuculara jurnalın və onun zəhmətini çəkən yaradıcı kollektivin hədiyyəsidir. Bir oxucu olaraq jurnala və onu araya-ərsəyə gətirənlərə uğurlar diləyirəm.**

**Əbülfət MƏDƏTOĞLU**

*İsmayıl İbrahimov*

## Özünsən

**Yenə çatıb qaşlarını nədənsə**
**Niyə mənə məlul məlul baxırsan**
**Ürəyimi yandırırsan yaxırsan**
**Ürəyimdə axı sənin özünsən.**

**Söylə görüm ,nədir mənim günahım**
**Səni sandım son ümidim,pənahım**
**Vallah sənsiz puçdur mənim həyatım**
**Həyatım da axı sənin özünsən.**

**İstəmirəm nə dövləti, nə varı**
**Ömrüm ,günüm sənsiz keçir havayı**
**Kimim vardır ,mənim səndən savayı**
**Hər kimimdə axı sənin özünsən.**

**Gəl dayanma İsmayılın qəsdinə**
**Mən sadiqəm öz əhdimə ,eşqimə**
**Göz yaşı axıtmaq düşüb bəxtimə**
**Göz yaşımda axı sənin özünsən.**

## Mübarək olsun

**Ay Şərur elinin gülərüz oğlu**
**Elinə,gününə yanımlı oğlu**
**Həyatım həmişə mənalı olsun**
**Sənin bu ad günün mübarək olsun**

**Gecə-gündüz arzum budur Xudadan**
**Xudam özü daim sənə yar olsun**
**Bu gün ad gününə gəlmişik sənin**
**Sənin bu ad günün mübarək olsun**

**Xoş müjdəli günlər həmdəmin olsun**
**Qüssə,kədər,qəm səndən uzaq olsun**
**Ürəyin ən şirin arzuyla dolsun**
**Sənin bu ad günün mübarək olsun.**

**Əsrin əlli ilin arxada qoydun**
**Ömrünün müdriklik yaşına doldun**
**Həyatda adına layiq iz qoydun**
**Sənin bu ad günün mübarək olsun.**

**Gələcək işlərin uğurlu olsun**
**Raminlə ,Rəfail köməyin olsun**
**Sifətin həmişə qoy nurlu olsun**
**Sənin bu ad günün mübarək olsun.**

## Mənim

**Yenə aramızdan soyuq yel əsdi**
**Sən gələn yolları qar,boran kəsdi**
**Gəl inad eyləmə bu qədər bəsdi**
**Üzür ürəyimi qəm,kədər mənim**

**Nahaq inanmısan özgə sözünə**
**Baxa bilməyirəm nəmli gözünə**
**Götür qoy elədim özüm-özümə**
**Üzür ürəyimi qəm, kədər mənim**

**Özüm də bilmirəm nədir günahım**
**Ucalıb göylərə fəryadım ,ahım**
**Sən yoxsan bilmirəm mən hara baxım**
**Üzür ürəyimi qəm,kədər mənim**

**Mənə şirin gəlmir özgənin sözü**
**Daha öləzəyib sevginin közü**
**Deyirəm kor olsun fələyin gözü**
**Üzür ürəyimi qəm,kədər mənim**

**Nə qədər gec deyil yenə bir düşün**
**Şəvə saçlarına artıq dən düşür**
**Demə ki ,İsmayıl məndən gen düşür**
**Üzür ürəyimi qəm,kədər mənim**

**Elə bil həyatdan küskün olmuşam**
**Dostdan ,aşinadan uzaq olmuşam**
**Öz gözəl yarıma ögey olmuşam**
**Üzür ürəyimi qəm,kədər mənim**

## Qayıt gəl

**Bu qəfil ayrılıq haradan gəldi**
**Qəlbimə hicranın buz əli dəydi**
**Sənsizlik qəddimi nə yaman əydi**
**Dözə bilməyirəm qayıt ,qayıt gəl**

**O,xoş baxışların ,o,gülər üzün**
**Əsir eyləmişdi məni lap düzü**
**Sənə neyləmişəm dönübdür üzün**
**Dözə bilməyirəm qayıt,qayıt gəl.**

**Elə bir qanadı sınmış bir quşam**
**Dəstədən ayrılıb tənha qalmışam**
**Gecə-gündüz xəyallara dalmışam**
**Dözə bilməyirəm qayıt ,qayıt gəl.**

**O sənli günlərim arxada qalıb**
**Ürəyimi qüssə ,kədər ,qəm alıb**
**Dediyin xoş sözlər yadımda qalıb**
**Dözə bilməyirəm ,qayıt ,qayıt gəl**

**Gözlərim dikilib sən gedən yola**
**Röyada gördüyüm həqiqət ola**
**Gedibsən,bir gün gəlişin ola**
**Dözə bilməyirəm ,qayıt ,qayıt gəl**

## Görəsən

**Bədnəzər gözümə gəldi sevgimiz**
**Yollar bağlanıbdır ,gəlmir səsimiz**
**Aləmə car olub bizim dərdimiz**
**Kimsə əlac edəcəkmi görəsən**

**Təskinlik veririk bir -birimizə**
**Gecələr yuxu da gəlmir gözümə**
**Ürək haray çəkir ,baxmır sözümə**
**Çoxmu çəkər bu ayrılıq görəsən**

**Nə Leyli Məcnuna ,Xosrov Şirinə**
**Nə də Əsli Kəráminə yetmədi**
**Vaxt ötüşdü,bəxt üzümə gülmədi**
**Əlim sənə yetəcəkmi görəsən**

**Həsrətimdir bu qəlbimi yandıran**
**Gözlərimdən yaz yağışı yağdıran**
**Ay qəlbimdə qəm havası çaldıran**
**Görüşünə gələssənmi görəsən**

**Bu nə sevgi ,nə məhəbbət bilmirəm**
**Sənsiz keçən bin günə də dözmürəm**
**Xoş sabaha ümidimi üzmürəm**
**Sabah səni tapacammı görəsən**

**Gileylənmə taleyindən İsmayıl**
**Sevgi yollarına indi qar yağıb**
**Ömrün bahar çağı arxada qalıb**
**Gələn yaza çatacaqsan görəsən.**

## Eylədin

**Qəm qatarı yol tapıbdır könlümə**
**Çox düşündüm ,çox daşındım xeyri nə?**
**Narahatdır ürək baxmır sözümə**
**Dünya mənə niyə qarğış eylədin.**

**Dəyməmişəm bir kimsənin xətrinə**
**Bürünmədim gül çiçəyin ətrinə**
**Cəllad kimi dayanıbsan qəsdimə**
**Dünya mənə niyə qarğış eylədin.**

**Qəm kədəri yağdırırsan üstümə**
**Qızınmadım ,hey kor oldum tüstünə**
**Bircə dəfə gülmüsənmi üzümə**
**Dünya mənə niyə qarğış eylədin.**

**Naçar qaldım alışdım sərt üzünə**
**Mən nə deyim belə tale yükünə**
**Öz yolumu mən gedirəm düzünə**
**Dünya mənə niyə qarğış eylədin.**

**İsmayılı çox çəkirsən sınağa**
**Çətin anda məni verdin qabağa**
**Ümidim var yenə gələn sabaha**
**Dünya mənə niyə qarğış eylədin**

**Naxçıvan**

## TƏBRİK



*Dünyaya gəlişi ilə ömrümüzü şənləndirən, həyatımıza sevinc qatan Xədicə balamızın 1 yaşı tamam olur.*

*O, özünün 1 yaşının nuru ilə təkcə atasının, anasının deyil, bütün doğmalarının həyatını mənalandırıbdır. Onun 1 yaşını qeyd etdiyim bu gözəl gündə Xədicə xanıma öncə tükənməz can sağlığı, sevinc və səadət, atalı-analı həyat və bir də öz ürəyinin payı olan gözəl bir ömür diləyirik.*

*Bu təbrikə atası Yusif, anası Tahirə, bacısı Məryəm, babaları, nənələri və Ülkər, Könül, Şamil, Süleyman qoşulurlar.*

*Təbrikə Rüstəm və Əbülfət babaları da qoşulur.*

# MÜƏLLİM

**Müasir zamanda hər gün bir yeniliklə üz-üzəyik demək olar ki. Marsı kəşf edən insan övladı yer üzündə nələrə qadir deyil ki? Əlbəttə, bütün bunlar tərəqqinin, inkişafın təzahürüdür. Bəs texnologiyanın bu qədər inkişaf etdiyi bir vaxtda insanlıq səviyyəsi hansı sırada qərarlaşıb?**



**Əfsus ki, bu göstərici texnologiya ilə bərabər ölçülmür. Dünyanı cənginə alan xəstəliklər, yurdundan, yuvasından baş götürüb qaçan miqrantlar, kasıblıq səviyyəsinin artması, amansız müharibələr. Bütün bunlar insanlıq səviyyəsinin sürətlə tənəzzülə doğru getməsinin əyani sübutudur. Ancaq onu da qeyd edək ki, belə bir şəraitdə ümid yolunun tam şəkildə zülmətə bürünməsini demək absurd fikir olar. Şükürlər olsun ki, hər peşə sahiblərindən bu yola işıq salan insanlar da var hələ ki. Ən əsası o yola işıq salan insanlar arasında müəllim adını daşıyanlar varsa, gecə düşsə də aylı gecə olacağından əminəm. Axı müəllim harda varsa orda inkişaf var, orda nur var. Hələ ki, o müəllimin elmi ilə insanlıq səviyyəsi eyni ola və hər ikisi ucalığı əks etdirə.**

Mərziyyə Baxşəliyeva Bakı şəhəri, Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən 14 saylı tam orta məktəbin tədris üzrə direktor müavini, dil-ədəbiyyat müəllimidir. Şagirdlərə ana nəvazişi sərgiləməklə özünü xoşbəxt hiss edən Mərziyyə müəllim öz şərəfli peşəsinin müsəlləh əsgəridir. Mərziyyə Baxşəliyeva 1974-cü ilin 27 oktyabrında Ağdərə rayonunda dünyaya göz açıb. 1-ci Qarabağ münaqişəsi zamanı Mərziyyə müəllim də doğmaları ilə birlikdə öz yurd-yuvalarından didərgin düşüb Bakı şəhərində məskunlaşmışdır. Ömrünün 25 ilini sevdiyi peşəsinə bəxş edən Mərziyyə müəllim bu gün qürurla "mən müəlliməm!" sözünü deməyə tam səlahiyyətli çatır. Çünki Mərziyyə müəllim adda yox, əməli ilə, fəaliyyəti ilə nümunəvi müəllimdir. Bu gün 27 oktyabr Mərziyyə müəllimin ömrünün 47-ci, peşəsinin 25-ci payızıdır. Hər iki şərəfli yolunda Mərziyyə Baxşəliyevaya uğurlar arzulayıram. Saldığın elm bağının hər ağacının hər budağında meyvələrin olması ümidi ilə yeni yaşınız yeni uğurlarınızın bələdçisi olsun deyirəm.

*Qışda bahar nəfəsi,*
*Öyrənməkdir həvəsi.*
*Ucalığın zirvəsi,*
*Azərbaycan müəllimi.*

**Eltun Türkel**

# Ərlərindən bahalı hədiyyə alan şou-biznes nümayəndələri: Rəqsanə, Şəbnəm, Sevda...

**Artıq çoxdan dəb halını almış nümayişkaranə "hədiyyə bağışlamaq prosesi" günü-gündən daha da rəqabətli hala dönüşüb. Bu prosesi "önəmli" edən məşhur şou-biznes nümayəndələridir -desək yanılmarıq.**

Məsələn, rusiyalı məşhur cütlük Vera Brejneva və Konstantin Meladze evliliklərinin növbəti ildönümünü qeyd edib.

Adalet.az rus mediasına istinadən xəbər verir ki, 2015-ci ildə İtaliyada evlənən cütlük bu dəfə də özəl günlərini fərqli qeyd etməyə çalışıb. Vera sosial şəbəkədə paylaşım edərək, hisslərini izləyiciləri ilə bölüşüb. O bildirib ki, uzaqda olsa da, ərinin yanına uçacaq və gecəni birlikdə keçirəcəklər.

Konstantin özəl gün münasibətiylə Brejnevaya brilyant üzük bağışlayıb. 1,74 əyyarlı üzüyün dəyəri 1,7 milyon rubldur.

Mayk Taysonun həyat yoldaşı üçün aldığı qızıldan vanna

Məşhur boksçu Mayk Tayson bir neçə dəfə ailə həyatı qurub. Lakin onun ən çox sevdiyi qadın Robin Givens olub.Onlar boşandıqdan sonra da ona qarşı olan hissləri heç dəyişməyib. Sevdiyi xanımı tez-tez ziyarət edərək, onunla boş vaxtlarını keçirən boksçu xanımı sevindirmək üçün ona 2 milyon dəyəri olan qızıldan vanna hədiyyə edir. Lakin bu dəyərli hədiyyə belə onların münasibətlərini bərpa edə bilmir və tezliklə cütlük tamamilə ayrılır.

Tanınmış aktrisa Nikol Kidman 2006-cı ildə müğənni Keith Urban ilə ailə həyatı qurur. Uzun illər ərzində ana olmaq istəyində olan aktrisa hamilə olduğunu öyrənəndə bütün film təkliflərini rədd edir və özünü analığa həsr edir. Bu körpə Urbanın da ilk övladı idi. Qızı Sandey Rouz dünyaya gələndə musiqiçi, Nikola brilliantlarla bəzədilmiş ağ, sarı və çəhrayı qızılla işlənmiş 73 min dollar dəyərində Cartier Trinity üzüyünü hədiyyə edir. Bu qeyri-adi üzüyün hər bir halqası bir məna kəsb edir: ağ qızıl dostluğu, sarı qızıl sadiqliyi, çəhrayı isə sevgini tərənnüm edir.

Milyonların sevgisini qazanan müğənni Maria Karrie həyat yoldaşı olan milyonçu Nik Kannondan tez-tez bahalı hədiyyələr alır. Belə hədiyyələrdən biri, Maria uçün alınan Rolls-Royce Phatomdur. Həmin avtomobilin qiyməti 400 min dollardır.

2011-ci ilin aprel ayında müğənninin Morokkana və Monro adında əkiz övladı dünyaya gəlir. Həyat yoldaşı, musiqiçi Nik Kannon, yeni ana olmuş həyat yoldaşına sürpriz etmək istəyirdi. O bilirdi ki, Maria zinət əşyalarını çox sevir və onun çox orijinal və bahalı daş-qaşları çoxdur deyə, həyat yoldaşına xüsusi fantaziyası ilə seçilən bir zinyət əşyası hədiyyə edir. Kannon çəhrayı və ağ brilliantlarla bəzədilmiş oğlunun və qızının adları həkk olunmuş boyunbağını sevdiyi qadına təqdim edir.Həmin boyunbağının qiyməti 1.5 milyon dollardır.

Medianın məlumatına görə, yerli şou-biznes nümayəndələrindən ən bahalı hədiyyəni yalnız müğənni Rəqsanə həyat yoldaşından alıb. Cütlük Moskvadakı bağ evində romantik şam yeməyi yeməklə kifayətləniblər. R.İsmayılova həyat yoldaşının ona ad günü münasibətilə "Bentley" markalı avtomobil bağışladığını da deyib.

Daha sonra müğənni Şəbnəm Əsədovaya həyat yoldaşı sürpriz edib. Əri Şəbnəmə BMW X6 markalı bahalı avtomobil hədiyyə edib.

**Müğənni Sevda Kazımovayaı həyat yoldaşı "Dodge" markalı hədiyyə edib.**

**Əntiqə Rəşid**

"Danışır müəllim!"

# "İnsanlar elə düşünür ki, şəhər onlar üçün yeganə çıxış yoludur"

*Həmsöhbətimiz Laçın rayon H.Həsənov adına Mişni kənd tam orta məktəbinin Azərbaycan dili və Ədəbiyyatı müəllimi Gülnar İsmayılovadır.*

**-Bir müddət kənd müəllimliyi etmisiniz. Bir qız üçün bu elə də çətin olmadı ?**

-Düzünü desəm, Daşkəsənin ucqar bir kəndində çətinliklər əlbəttə ki, var. Bakıdan 500-600 km məsafədə , dağ yolu olan bir kənd idi. Kənddə olduğum müddətdə dərslər, məktəbdən əlavə çörək bişirir, paltarı əldə yuyur, bulaqdan su gətirir, odun daşıyır, ocaq qalayırdım.

**-Kənd müəllimliyinin nə qədər romantikasından danışsaq da bir müddət sonra həmin müəllimlər şəhərə gəlməyə çalışır. Bunun əsas səbəbləri nələrdir?**

-Bir çox insanlar elə düşünür ki, şəhər onlar üçün yeganə çıxış yoludur. Şəhərə gəlməklə xoşbəxt olacaq, məmnun hiss edəcəklər. Məndə isə tamamilə başqa bir səbəb var idi.

**-Hansı maraqlı hadisələrlə rastlaşdınız orada?**

-Hər bir məktəbim demək olar ki, həqiqətən də mənə məktəb oldu. O kəndlərdən, o məktəblərdən, insanlarından çox şey öyrəndim. Bəlkə də qalaq-qalaq kitablar yaşadıqlarımı, gördüklərimi əvəz edə bilməzdi. İlk dəfə məktəbə gedəndə mənə "müəllim" deyilməsinə təəccüblənmişdim.

**-Adətən kənddə müəllim kimi çalışanlar şəhərdən fərqli olaraq kənd adamların daha çox mehribanlıq, doğmalıq göstərdiyindən danışır. Həmçinin şagirdlərin də müəyyən qədər fərqləndiyini.**

-Bəli tam da elə idi. Mehriban, mədəni , ağıllı uşaqlar çox idi. Bəzi maddi imkanı az olan şagirdlərlə dərsdən sonra ödənişsiz şəkildə dərslər də keçirdik. Onlarla maraqlı idi.

**-Bir müddət dövlət tərəfindən İsraildə təlimlərə cəlb olunmusunuz. İsrail təlimləri müəllim kimi sizə nələr qazandırdı? Təhsil prosesində hansı köməkliyi keçir?**

-İsrail təlimləri :Avropa təcrübəsi,fərqli müəllim ,təhsil mühiti,STEAM metodologiyası və saymaqla bitməyən təcrübələr qazandırdı.

**-Şagirdlərinizdən danışardınız. Sizə münasibətləri necədir? Müasir Azərbaycan ədəbiyyatını onlara necə sevdirirsiniz?**

-Şagirdlərlə münasibətimiz ana-bala,tələbkar müəllim, dost (bəzən mentor) üçbucağı aralığındadır. Hər şagird ədəbiyyatı və ya riyaziyyatı sevməlidir deyə bir şey yoxdur fikrimcə.



Amma bacardığım qədər onlara ədəbiyyatın necə həyatımıza yön verdiyini, fikirlərimizin formalaşmasına yardımçı olduğunu,nitqimizə, şəxsi inkişafımıza töhfə verməyə qadir olduğunu aşılamağa çalışıram. Onlardan bəziləri əvvəl-əvvəl məcburiyyətindən oxuyurdularsa ,sonradan bu vərdişə və bacarığa çevrilir zamanla.

**-Dövlət İmtahan Mərkəzində "Marker müəllim" statusunuz var. Nədir bu "Marker müəllim"? Digər müəllimlərdən fərqi nədir?**

-"Marker müəllim" DİM- də meyarlar üzrə qiymətləndirməni həyata keçirən müəllimdir. Yoxlama prosesini yalnız Marker müəllimlər həyata keçirə bilər.

**-Bu arada Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsinin qalibi olmusunuz. Bu haqda danışardınız?**

-Bu il ilk dəfə qrant müsabiqəsinə layihə yazmağı qərara aldım. İl boyu qoşulduğum təlimlərdən öyrənməyə, faydalanmağa çalışdım.

"Gənclərin Uğurlu Karyera Yolu" layihəsi haqqında onu deyə bilərəm ki, çox faydalı, yararlı bir layihədir şagirdlər üçün. Onların düzgün karyera seçimində , uyğun ixtisas seçimində, özlərini daha yaxşı tanımalarında bu layihənin rolu olacaq.

**-Sizcə bu layihələr nələr qazandırır təhsil prosesinə?**

- Layihələr təhsilə yeni nəfəs,yeni fikirlər,yeni metodlar,pilot layihələr ,saymaqla bitməyən təcrübələr qazandırır.

**-Bəzən bir çoxları sadəcə tərcümeyihalını zənginləşdirmək üçün qalib olmaq istəyir. Və ya sadəcə formal xarakterli keçirir. Sadəcə kimsənin tanımadığı 3-4-cü dərəcəli saytlarda bu haqda informasiyalar verməklə kifayətlənirlər.**

-Mənim üçün həyatda əsas təcrübədir. Öyrənim ki, daha yaxşı öyrədə bilim.Təcrübəm artsın ki, daha çox fayda verə bilim. Dəyərlər sıralamasında faydalılıq öndə gəlir.

Əsas prinsip , məqsəd və başlıca fikir təhsil adına faydalı olmaq, dəyərlər , şəxsiyyətlər yetişdirməkdir.

**Söhbətləşdi:**
**Emin Piri**

Aqil Abbas və Əbülfət Mədətoğlu professor, şair,

**Nizami Muradoğlunun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Asim Yadigar, Akif İmanlı, Hüseyn Əsgərov, Zəkulla Bayramlı və İbrahim Yusifoğlu professor, şair,

**Nizami Muradoğlunun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 135**
Çapa imzalanmışdır:
25.10.2021